

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

4 noyabr
2025-ci il,
çərşənbə axşamı
№ 200 (7027)
Qiymәti
60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## Zəfər ayının 4-cü günü



İlham Əliyev
@azpresident

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

5:51 PM · Nov 4, 2020 · Twitter Web App



# Elmimizin praktik nəticələri olmalıdır!

**İlham Əliyev: Burada bu kürsüdən dövlət strukturlarına da göstəriş vermək istəyirəm...**

**Azərbaycan alimləri ilə daha sıx işləsinlər**

**Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq!**

Bax səh. 2

# Yeni Azərbaycan Partiyası və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib






Bax səh. 4-5

# Tarixi Zəfərdən yeni inşa mərhələsinə

Bax səh. 6

## Dünya kosmik ailəsinin layiqli üzvü

Bax səh. 3

## Bakı kolonializmə qarşı - Afrika ölkələri Azərbaycanın dəstəyini hiss edir

Bax səh. 6

## Əl-Faşerdəki faciə Xocalı soyqırımını xatırladır

Bax səh. 6

## “OPEC+” neft tədarükünü niyə artırır?

Bax səh. 7

# Ağrı dağının təsvirindən imtina...



**Ermənistan Türkiyəyə qarşı ərazi iddialarından geri çəkilir?**

Bax səh. 7

## Budapeşt görüşü baş tutmadı: səbəblər və faktlar

Bax səh. 7

# Elmimizin praktik nəticələri olmalıdır!

## İlham Əliyev: Burada bu kürsüdən dövlət strukturlarına da göstəriş vermək istəyirəm... Azərbaycan alimləri ilə daha sıx işləsinlər

## Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq!



Noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaq keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə dövlətimizin başçısı Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin üzvləri və Akademiyanın 80 illik yubiley yığıncağında iştirak edən xarici qonaqlarla görüşüb. Sonra Prezident İlham Əliyev tədbirdə çıxış edib.

Dövlətimizin başçısı alimləri və qonaqları Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə təbrik edərək, Akademiyanın gələcək fəaliyyətinə uğurlar arzulayıb və əmin olduğunu bildiribki, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan alimləri bundan sonra da ölkəmizin uğurlu inkişafına öz töhfələrini verəcəklər.



### Heydər Əliyev siyasəti davam edir, yaşayır, yeni formalarla zənginləşir

Akademiyanı 80 il ərzində böyük yol keçdiyini söyləyən Prezident İlham Əliyev bildirib ki, müxtəlif ictimai-siyasi quruluşda yaşamağımıza baxmayaraq, Azərbaycan hər zaman öz elminin inkişafına böyük diqqət yetirirdi: Sirr deyil ki, Ulu Öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi. Hələ ötən əsrin 70-ci illərində onun rəhbərliyi ilə Akademiyanın fəaliyyəti təkmilləşdi, bir neçə yeni elmi-tədqiqat institutu yaradıldı, elmin inkişafına böyük vəsait ayrılırdı. Faktiki olaraq bu siyasət müstəqillik illərində də davam etdirilirdi. Ulu Öndərin təşəbbüsü ilə keçən əsrin 70-ci illərindən başlayaraq yüz minlərlə Azərbaycan gənci o vaxt Sovet İttifaqının aparıcı ali məktəblərinə göndərilmişdir və beləliklə, ölkəmizdə intellektual potensial daha da güclənmişdir. Eyni siyasəti biz müstəqillik illərində də aparırıq. Bu gün də on minlərlə Azərbaycan gənci artıq dünyanın aparıcı ali məktəblərinə ezam olunur. Onların böyük əksəriyyəti oxuyub Vətənə qayıdırlar və beləliklə, ölkəmizin inkişafına öz dəyərli töhfələrini verirlər.

Müstəqilliyin ilk illəri çox ağır idi, faciəvi idi. O vaxt məhz Heydər Əliyevin qətiyyəti, iradəsi, xalqa olan bağlılığı bizi böyük bəlalardan qurtara bilmişdir. O da çox böyük göstəricidir ki, onun hakimiyyətə qayıdışından sonra Azərbaycan ziyalıları ilə, Azərbaycan ictimaiyyəti ilə ilk görüşü məhz 1993-cü ildə Milli Elmlər Akademiyasında olmuşdur”. O vaxtlar maliyyə imkanlarımızın məhdud olduğunu önə çəkən dövlətimizin başçısı bildirib ki, buna baxmayaraq Akademiyanın qorunmasına, alimlərin fəaliyyəti üçün vəsait ayrılırdı. Son on il ərzində Azərbaycan elminə ayrılan vəsaitin iki dəfədən çox ardığını bəyan edən Prezident İlham Əliyev deyib ki, Azərbaycan elminin inkişafına göstərilən diqqət Ulu Öndərin siyasətinə uyğun şəkildə aparıldı: “Başqa sahələrdə olduğu kimi, bu istiqamətdə də Heydər Əliyev siyasəti davam edir, yaşayır, yeni formalarla zənginləşir.

10 il bundan əvvəl - Akademiyanın 70 illiyində bu salonda alimlər qarşısında çıxış etdiyini xatırladan dövlətimizin başçısı ötən müddət ərzində elmin inkişafına göstərilmiş dəstəkdən bəhs edib. Son 10 il ərzində həm dünyada, həm Azərbaycanda köklü dəyişikliklərin baş verdiyini - dünya iqtisadiyyatının dəyişdiyini, beynəlxalq hüququn pozulduğunu, dünyada müharibələrin və toqquşmaların baş verdiyini söyləyən Prezident İlham Əliyev bildirib ki, ötən bu illər bizim üçün inkişaf və zəfərlərlə zəngin illər olub. Belə ki, əsas vəzifəmizi yerinə yetirmişik - torpaqlarımız azad edib, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etmişik: “Son beş il ərzində dünyada bir çox yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş verirdi və hər şey müqayisə ilə ölçülür. Bunu da alimlər yaxşı bilir. Deyə bilərəm ki, bizim qədər parlaq, tam və mütləq Qələbə qazanan ikinci ölkə olmamışdır. Azərbaycan tamamilə yeni vəziyyətdə yaşayır və əlbəttə ki, öz addımlarımızı dəyişən dünyada gedən proseslərə həm uyğunlaşdırmalıyıq, həm də ki, bir çox təşəbbüslər irəli sürməliyik. Ona görə təbii ki, illər keçdikcə qarşıda duran vəzifələr də dəyişir. Ona görə bugünkü inkişafla bağlı, inkişafın gələcək istiqamətləri ilə bağlı əlbəttə ki, prioritetlər əvvəlki dövrdən fərqlənir. Bu gün sirr deyil ki, hər bir ölkənin inkişafını, eyni zamanda, təhlükəsizliyini o ölkənin texnoloji imkanları şərtləndirir”.

### Texnoloji inkişaf bizim üçün əsas prioritet olmalıdır

Dövlətimizin başçısı bildirib ki, texnoloji inkişaf bizim üçün əsas prioritet olmalıdır və əlbəttə, burada Azərbaycan alimlərinin üzərinə böyük vəzifə düşür: “Hər bir ölkənin inkişafını təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf, elmin inkişafı müəyyən edir. Yəni, təbii resurslar bizim üçün sadəcə olaraq bir vasitədir, bir imkandır ki, biz təbii resursların ixracından əldə etdiyimiz vəsaiti insan kapitalına yönəldək, texnoloji inkişafa yönəldək ki, gələcəkdə bizim inkişafımız dayanıqlı olsun. Hər kəs yaxşı bilir ki, təbii sərvətlər tükənən sərvətlərdir, gec-tez tükənəcək. Tükənməz sərvət isə intellektual potensialdır, amma o halda əgər buna sərmayə qoyularsa. O sərmayəni dövlət qoymalıdır. Ölkənin elm ictimaiyyəti, alimlər bu istiqamətdə öz səylərini göstərməlidirlər. Ona görə bu gün əsas vəzifələrdən biri texnoloji inkişafdır”.

Süni intellekt haqqında 10 il əvvəl heç kimin danışmadığını, bu gün isə ölkələrin gələcək inkişafının ayrılmaz hissəsinə çevrildiyini deyən dövlətimizin başçısı bəyan edib ki, biz bu sahədə geri qalmamalıyıq və dövlət lazımi addımları atır: “Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır və əlbəttə ki, biz burada Azərbaycan alimlərinin fəal iştirakını gözləyirik”.

Rəqəmsallaşmadan söz açan Prezident İlham Əliyev qeyd edib ki, rəqəmsallaşmanı ölkəmizdə geniş miqyasda tətbiq edirik və bunun faydasını görürük: “Rəqəmsallaşma olan sahələrdə artıq işin keyfiyyətinin əmsalı da artır, səmərə də artır və nəticə etibarilə daha gözəl nəticələr hasil edilir. Ona görə təsadüfi deyil ki, artıq bir müddət bundan əvvəl bizim hökumət strukturunda nazirliyə “Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi” adı verilmişdir və bu istiqamətdə də addımlar atılır. Azərbaycan alimlərini burada yenə də fəal olmağa dəvət edirəm”.

Dövlətimizin başçısı çıxışında kibertəhlükəsizliklə bağlı məsələyə də yer ayırıb. O bildirib ki, Azərbaycan da kiber hücumlara bu il məruz qalıb və Kibertəhlükəsizlik Mərkəzinin yaradılması vaxtında atılmış addımdır: “Biz beynəlxalq tərəfdaşlarla, bu sahədə böyük təcrübəyə malik olan şirkətlərlə çox geniş proqramlar üzərində işləyirik ki, özümüzü maksimum dərəcədə qoruya bilək, müdafiə edə bilək. Çünki kibertəhlükəsizlik, yəni, virtual təhlükəsizlik deyil. Bu, hər bir ölkənin fiziki təhlükəsizliyidir. Bu gün həm müharibələrin deməli aparılma qaydaları dəyişir, təhlükələrin mənbələri dəyişir və dünya dəyişir. Ona görə bu sahəyə əgər lazımi diqqət göstərilməsə, heç bir başqa müdafiə imkanı bizi böyük problemlərdən qoruya bilməz. Ona görə kibertəhlükəsizliklə bağlı həm dövlət, həm Azərbaycanın elm ictimaiyyəti birgə işləməlidir. Əlbəttə ki, eyni zamanda, bizə qarşı kiberhücumlar təşkil edən ölkələr, ya tərəflər, ya qurumlar cəzasız qalmamalıdır. Biz həm özümüzü müdafiə etməliyik, həm də ki, bizə zərər vermək istəyənlərə də layiqli cavab verməliyik.

Bu gün bildiyiniz kimi, Azərbaycanda hərbi sənaye sürətlə inkişaf edir və artıq uzun illər ərzində bu sahəyə böyük vəsait ayrılır, bu sahədə fəaliyyət göstərən şirkətlərin fəaliyyəti təkmilləşir. Eyni zamanda, bu yaxınlarda biz bu sahəni özəl sektor üçün də açmışıq. Çünki bu istiqamətdə ən böyük uğurlar əldə etmiş ölkələrdə hərbi təyinatlı məhsullar məhz özəl şirkətlər tərəfindən istehsal olunur. Ona görə biz də burada lisenziyaları verməklə özəl sektoru cəlb etmişik. Eyni zamanda, mənim tərəfimdən də onlara çağırış olub və bu gün özəl şirkətlər artıq hərbi təyinatlı məhsulların istehsalı ilə məşğul olmağa başlamışlar. Deyə bilərəm ki, hələlik bu proses icra mərhələsindədir, amma yəqin ki, yaxın gələcəkdə bir çox Azərbaycan şirkətləri artıq dünya səviyyəli keyfiyyətli hərbi təyinatlı məhsullar istehsal edəcəklər. Eyni zamanda, dövlət xətti ilə bu istiqamətdə işlər aparılır və biz öz hərbi imkanlarımızı artıq böyük dərəcədə yerli istehsal hesabına genişləndiririk, öz tələbatımızı böyük dərəcədə ödəyirik. Artıq bir çox ölkələrə hərbi təyinatlı məhsul ixrac edirik və qarşıya vəzifə qoyulub ki, həm daxili tələbatı ödəmək, həm də ixrac etmək üçün bizdə bu istiqamətdə çox ciddi sənaye klasteri yaradılsın. Çünki bu, çox gəlirli sahədir və nəzərə alsaq ki, bu gün dünyanın bütün yerlərində müharibələr alovlanır, dayanmır, əfsuslar olsun ki, hərbi təyinatlı məhsullara bundan sonra da ehtiyac olacaq. Ona görə bu istiqamətdə bu gün biz çox fəal işləyirik. Yenə də deyirəm, biz təbii ki, dövlət və özəl şirkətlərimizi, eyni zamanda, Azərbaycan alimlərini bu istiqamətə dəvət edirik”.

### Bunun təməlini biz qoymuşuq

Prezident İlham Əliyev şanlı Vətən müharibəsi zamanı tətbiq edilən pilotsuz uçuş aparatlarından bəhs edərək bildirib ki, müharibədə məhz birinci biz bunu tətbiq etmişik: “Bu gün müasir müharibələri bunsuz təsəvvür etmək mümkün deyil. Yəni, bunun təməlini biz qoymuşuq və bu gün bu istiqamətdə Azərbaycanda çox böyük işlər görülür. Biz bu məhsulları həm xarici bazarlardan tədarük edirik, eyni zamanda, özümüz də bir çox növdən ibarət pilotsuz uçuş aparatlarını istehsal etməyə başlamışıq və bunu davam etdirəcəyik. Burada da təbii ki, Azərbaycan elmi ictimaiyyəti üçün çox böyük fəaliyyət meydançası yaradılır.

Mən bütövlükdə bildirmək istəyirəm ki, elm iqtisadiyyatla, sənaye ilə sıx bağlı olmalıdır. Burada bu kürsüdən dövlət strukturlarına da göstəriş vermək istəyirəm ki, Azərbaycan alimləri ilə daha sıx işləsinlər.

Çünki bu gün bizim elmimizin praktik nəticələri olmalıdır. Təkcə elmi əsərlərdə yox, həyatda və iqtisadiyyatın sürətli inkişafını nəzərə alaraq, əlbəttə ki, burada əlaqələndirmə, uzlaşma yüksək səviyyədə olmalıdır. Əminəm ki, bu sözlərdən sonra bizim dövlət qurumlarımız Azərbaycan alimləri ilə daha fəal işləyəcəklər”.



### Bizim iqtisadiyyat sağlam iqtisadiyyatdır

İqtisadi göstəricilərimiz çox müsbət olduğunu deyən dövlətimizin başçısı bildirib ki, ümumi daxili məhsul çox artmır - bunun da əsas səbəbi neft hasilatının obyektiv səbəblərə görə aşağı düşməsidir. Ancaq bu gün iqtisadiyyatımızın aparıcı təkanverici qüvvəsi qeyri-neft sektordur: “Bu, bizim ümumi iqtisadiyyatımızın əksəriyyətini təşkil edir. Bu gün dünyanın aparıcı reytinq agentlikləri - iki aparıcı beynəlxalq reytinq agentliyi bizim kredit reytinqimizi qaldırıb və bunu investisiya reytinqinə uyğun səviyyədə artırıb. Bu, əlbəttə ki, ölkəmizdə gedən iqtisadi islahatların təzahürüdür. Çünki bu gün bizim iqtisadiyyat sağlam iqtisadiyyatdır. Biz heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq siyasi müstəqilliyi də gücləndirir. Bizim xarici borcumuz çox aşağı səviyyədədir. Sirr deyil ki, bir çox inkişaf etmiş ölkələrdə xarici borc o ölkələrin ümumi daxili məhsulunun yüz faizini, bəlkə də daha çox təşkil edir. Bizdə isə bu, cəmi 6 faizdən bir qədər çoxdur. Bizim valyuta ehtiyatlarımız ildən-ilə artır və bu il də əhəmiyyətli dərəcədə artıb, 80 milyard dolları ötüb. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 16 dəfə çoxdur. Biz əgər istəsək, xarici borcumuzu bir neçə ay ərzində sıfırlaya bilərik. Yəni, bu göstəriciyə görə Azərbaycan bu gün dünya miqyasında aparıcı yerlərdədir. Əlbəttə ki, iqtisadi və maliyyə dayanıqlılığı bizə imkan verir ki, böyük investisiya layihələrini icra edək. Təbiidir ki, bu gün əsas investisiya layihələrinin istiqaməti Qarabağ və Şərqi Zəngəzurdur. Azad edilmiş bu torpaqlarda da dünyada misli görülməmiş işlər görülür. Yəni, Azərbaycan ictimaiyyəti müntəzəm olaraq bu barədə məlumatlandırılır və bir çox vətəndaşlarımız artıq azad edilmiş torpaqlara gediblər. Dəfələrlə orada olublar və gedən inkişafı öz gözləri ilə görürlər. Yəni, bizim güclü iqtisadiyyatımız bizə həm əminlik verir, həm də azad edilmiş torpaqların tezliklə bərpa edilməsinə imkan verir. Güclü hərbi potensialı yaratmaq üçün imkan verir”.

### Azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır

Çıxışında Azərbaycan tarixindən söz açan dövlətimizin başçısı Ermənistan və erməni lobbisi tərəfindən zəngin tariximizin təhrif olunduğunu təəssüf hissi ilə bildirib. O hələ 10 öncə Akademiyanın 70 illiyində bu barədə söylədiklərini xatırladıb: “Biz öz tariximizi tədqiq və təbliğ etməliyik. Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır. Təkcə onu demək kifayətdir ki, bizim hüdudlarımızın o tayında hər istiqamət üzrə Azərbaycan əhalisi yaşayır. Ermənistanda da yaşayıb, amma oradan qovulub. Amma əminəm ki, yenə də yaşayacaq. Çünki biz bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi yaşayırlar. Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar. Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq. Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür.

İctimai təşkilatlar və eyni zamanda, Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki, vaxtilə erməniləri İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin.

Yəni, bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir. Ona görə biz bunu təbliğ etməliyik, tədqiq etməliyik. Daha çox elmi əsərlər, daha çox hətta kiçikhəcmli bukletlər hazırlanmalıdır ki, həm Azərbaycan gəncləri öz tarixini yaxından bilsinlər, həm dünya ictimayyəti bilsin və eyni zamanda, indiki Ermənistana bizim qayıdışımız da tamamilə məntiqli və ədalətli səslənsin. Ona görə Azərbaycan tarixi ilə bağlı bax, bu istiqamətdə əlbəttə ki, əlavə addımlara ehtiyac var. Bütövlükdə müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərə də böyük ehtiyac var. Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsirlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var”.

### Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır

“On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda, Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram. Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları biziz - müstəqil Azərbaycan dövləti” - deyən Prezident İlham Əliyev bəzi yerlərdə ədəbi dilimizin digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirildiyini söyləyib - daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Dövlətimizin başçısı vurğulayıb: “Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir.

Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm, - həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, - buna heç bir gərək yoxdur. Yəni, biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax, bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm”.

### Azadlıq meydanında hərbi paradın keçirilməsi qürurverici hadisədir

Çıxışının sonunda Prezident İlham Əliyev bəyan edib ki, bir neçə gündən sonra tarixi Zəfərimizin beş illiyini qeyd edəcəyik: “Hərbi parad təşkil ediləcək. Beş il əvvəl, 2020-ci ilin dekabrında Zəfər paradı keçirilmişdir. 2023-cü ildə Xankəndidə hərbi parad keçirilmişdir ki, Azərbaycanın suverenliyi tam bərpa edilmişdir. Bir neçə gündən sonra Azadlıq meydanında hərbi paradın keçirilməsi böyük hadisədir, qürurverici hadisədir. Azərbaycan xalqı bu Şanlı Zəfərlə bundan sonra əbədi fəxr edəcək.

Mən sizi, bütün Azərbaycan xalqını həm Milli Elmlər Akademiyasının 80 illiyi münasibətilə, həm də qarşıdan gələn Zəfər Günü və Bayraq Günü münasibətilə təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram”.

# Dünya kosmik ailəsinin layiqli üzvü



Qısa müstəqillik tarixində Azərbaycan bir sıra mühüm uğurlara imza atıb ki, onlardan biri də ölkəmizdə kosmik sənayenin inkişafıdır. Bu gün biz qürur duyuruq ki, respublikamız dünyanın azsaylı kosmik ailəsinin sıralarında yer alır. Bunun əsası isə Prezident İlham Əliyevin tarixin bu günündə - 2008-ci il noyabrın 4-də imzaladığı "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" müvafiq Sərəncamla qoyulub.

Bundan sonra ölkəmizdə kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı təsdiqlənib, müvafiq qanun qəbul edilib, hüquqi bazanı möhkəmlədən, strukturun səmərəliliyini təmin etməyə hesablanan digər sənədlər qüvvəyə minib.

2021-ci il aprelin 27-də Prezident İlham Əliyevin Fərmanına əsasən, "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin əsasında Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxs yaradılıb. Kosmik Agentlik sülh və rifah naminə yüksək texnologiyalara əsaslanan fərdi həllər təqdim edir. Qlobal miqyasda rabitə şəbəkəsini təmin etmək, istedadlar yetişdirmək, regional kosmik mərkəz kimi xidmət göstərmək və Azərbaycanda kosmik sənayenin inkişafına töhfə vermək qurumun fəaliyyətinin prioritet istiqamətlərini təşkil edir.



## Üç peyk orbitdə, yeniləri də olacaq...

Kosmik sənayenin qurulması Azərbaycanın gələcəyə baxışlarını ifadə edir. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq respublikamız müasir dövlət kimi inkişaf edir. Hazırda dünya texnoloji, innovativ inkişafla səciyyələnən Dördüncü sənaye inqilabı dövrünü yaşayır. Azərbaycan da yeni sənaye inkişafını hədəfləyən və buna doğru inamlı addımlar atan dövlətdir. Qeyd edək ki, Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afilədilmiş Azərbaycan Mərkəzinin (4SİM Afilədilmiş Azərbaycan Mərkəzi) yaradılmasına dair Azərbaycan Respublikası Hökuməti ilə Dünya İqtisadi Forumu arasında razılaşma imzalanıb. 2021-ci il aprelin 1-dən fəaliyyətə başlayan 4SİM Afilədilmiş Azərbaycan Mərkəzinin yaradılmasının əsası 2020-ci il yanvarın 21-də İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında niyyət protokolunun imzalanması ilə qoyulub. 4SİM Afilədilmiş Azərbaycan Mərkəzi MDB məkanında yaradılan ilk mərkəzdir.

Azərkosmosun yaradılması və uğurlu fəaliyyəti respublikamızın Dördüncü sənaye inqilabının hədəflərinə doğru atdığı çox uğurlu addımlardan biridir. Azərbaycan MDB məkanında kosmosa peyklər buraxan azsaylı ölkələr sırasında yer alır. Xatırladaq ki, birinci süni peykimiz olan "Azerspace-1" 2013-cü il fevral ayının 8-də Cənubi Amerikada yerləşən Kuru kosmodromundan geostasionar orbitə çıxarılıb. Əhatə dairəsi Avropa, Afrika, Mərkəzi Asiya, Yaxın Şərq, Qafqaz olan peykin imkanlarının 20 faizi Azərbaycanın tələbatını ödəmək, qalan 80 faizi isə kommersiya məqsədi daşıyır. Dəyəri 233 milyon dollar olan peykin istismar müddəti on azı 15 ildir.

Azərbaycanın 2014-cü il iyunun 30-da orbitə göndərdiyi ikinci peyk isə "Azersky" adlı müşahidə peykidir. Dəyəri 157 milyon avro olan "Azersky" əsasən Azərbaycanın müdafiə və təhlükəsizliyinə xidmət edir.

Sayca üçüncü peykimiz sayılan "Azerspace-2" isə 2018-ci il sentyabrın 26-da yenə də Kuru kosmodromundan orbitə buraxılıb. Peykin əhatə dairəsi Avropa, Yaxın Şərq, Tropik Afrika, Mərkəzi və Cənubi Asiyadır. 190 milyon dollara başa gələn "Azerspace-2"nin istismar müddəti 20 ildir. "Bu gün ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi peykinə malik olaraq biz Azərbaycanda kosmik sənayenin inkişafını davam etdiririk. Onu da bildirim ki, bu üç peyk azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunur və onlar təkcə Azərbaycana deyil, 45-dən artıq ölkəyə xidmət göstərirlər", - deyə Prezident İlham Əliyev məmnunluq hissi ilə bildirib.

İndiyədək respublikamız kosmik sahənin inkişafına 600 milyon dollardan çox investisiya yönləndirib. Perspektivlə də bağlı böyük planlar nəzərdə tutulur. 2030-cu ilədək Aya və Marsa Azərbaycanın missiyasını göndərmək də bu planlara daxildir. "Azersky2"nin orbitə buraxılması yaxın hədəflər sırasındadır. 5 il fəaliyyətdə olacağı təxmin edilən "Azersky2" peyki ilə 500 km hündürlükdən uzunluğu 400 km-ə, eni isə 5 km-ə qədər fotolar çəkmək mümkün olacaq. Peyk, ayırdetməsi 50 sm-dən daha yaxşı təsvirlər əldə etmək üçün elektro-optikal kamera ilə təchiz ediləcək . Peykin məlumat yaddaşı 1 TB müəyyən edilib. Qurğu saniyədə 0.5 GB ölçüdə material ötürə biləcək. Peyk "OPTSAT 500" platforması üzərində istehsal ediləcək. Beləliklə, yeni peyk qurğusu Azərbaycanın ən son nəsil peyk parkının yaranmasına və çoxsaxəli və daha dəqiq müşahidələr aparmağa imkan verəcək.

Kosmik Agentliyin fəaliyyəti həm də ölkəmizdə geniş şəkildə təşviq olunan qeyri-neft sənayesinin inkişafının real göstəricisidir. Son illərdə "Made in Azerbaijan" brendi ilə buraxılan yüksək keyfiyyətli məhsullar beynəlxalq yarmarkalarda uğurla təmsil olunur və onlara dünya bazarlarında tələbat getdikcə artır. İnnovativ məhsulların, o cümlədən də kosmik xidmətlərin ixracı yeni və perspektivli istiqamətlərdən biridir. Hazırda "Azərkosmos"un ixrac portfelində ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Malayziya kimi dünyanın aparıcı ölkələrinin qabaqcıl şirkətləri təmsil olunurlar və bu xəritə getdikcə daha da genişlənir.

İndiyədək "Azərkosmos" 100-dən çox strateji önəmli kommersiya layihəsi həyata keçirib və öz maliyyə portfelini xidmət satışları hesabına genişləndirib. İlk peykin orbitə buraxılmasından 10 il sonra kosmik qurum 10 milyon dollarlıq biznes portfeli formalaşdırmağa nail olub.

## Azərbaycanın böyük nailiyyəti - innovativ məhsul ixracı

İxrac həcmləri də getdikcə artır. 2025-ci ilin yanvar-avqust aylarında "Azərkosmos" tərəfindən dünyanın 41 ölkəsinə 11,6 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidməti ixrac edilib. Xidmət ixracından əldə edilən gəlirlər milli kosmik agentliyin ümumi gəlirlərinin 66 faizini təşkil edir. Peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 3,1 milyon dollarla Birləşmiş Krallıq, 2,3 milyon dollarla Lüksemburq, 569,5 min dollarla Nigeriya, 537,9 dollarla Türkiyə, 530,4 min dollarla İsveç qərarlaşıb.

## Genişlənən beynəlxalq əlaqələr

Qısa fəaliyyəti dövründə "Azərkosmos" beynəlxalq əlaqələrini də əhəmiyyətli dərəcədə genişləndirib. Bu gün dünyanın kosmik ailəsində ölkəmizə böyük etimad var. 2023-cü ilin oktyabr ayında 74-cü Beynəlxalq Astronavtika Konqresinin Bakıda toplaşması bunun əyani göstəricisidir. Beynəlxalq Astronavtika Federasiyası İkinci Dünya müharibəsindən sonra "soyuq müharibə" dövründə kosmos sahəsində elm adamlarının arasında dialoqun yenidən qurulması məqsədilə 1951-ci ildə yaradılıb. Hazırda Federasiyanın 110 ölkədən 460-dan çox üzvü var. Azərbaycan 2003-cü ildən Federasiyanın üzvüdür. Konqresin ölkəmizdə keçirilməsi barədə qərar 2019-cu ilin oktyabrında ABŞ-ın paytaxtı Vaşinqtonda qəbul edilib. Bu mötəbər tədbirə ev sahibliyi etməyə namizəd şəhərlər arasında Sinqapur, Rio-de-Janeyro və Nyu Delhi də olub. Kəskin rəqabət şəraitində keçən seçkilərdə paytaxtımız qalib gəlib.

Tədbirdə, ümumilikdə, 95 ölkədən 3600-dən çox elmi məqalə təqdim olunub. Bu göstərici ilə Bakı Konqresi Paris (2022), Vaşinqton (2019) və Bremen (2018) tədbirləri ilə birgə indiyədək keçirilən bütün konqresləri geridə qoyub.

"Azərkosmos" Çinin qlobal terminal istehsalçısı olan "StarWin" şirkəti ilə əməkdaşlığı artırmaq niyyətindədir. Ötən il sözügedən şirkətlə müqavilə imzalanıb və regionda rabitə xidmətlərinin əhatəsini genişləndirmək üçün əlavə peyk resursu bazası yaradılıb. Çin şirkəti ilə əməkdaşlıq çərçivəsində, müştərilərə ənənəvi rabitə infrastrukturu olmayan uzaq bölgələrdə xidmət göstəriləcək ki, həmin xidmətləri "Azconnexus"- "StarWin" peyk internet platforması birlikdə təchiz edəcək.

Beynəlxalq əməkdaşlıq çərçivəsində "Azərkosmos" qlobal peyk operatoru olan "ABŞ" şirkəti ilə faydalı əlaqələr qurub. Niderlandda keçirilən "IBC 2024" beynəlxalq sərgi-konfransında ABŞ-ın eyniadlı şirkəti ilə imzalanmış sazişə əsasən, milli kosmik şirkətimiz Amerikanın peyk vasitəsilə Nigeriya ərazisində öz müştərilərinə "Pay TV" xidmətini təqdim edəcək.

*Mübariz ABDULLAYEV*

# 20-ci səfər...

## Diplomatların azad olunmuş ərazilərə səfəri ənənə halını alıb

**Azərbaycan öz ərazilərini erməni işğalından azad etdikdən sonra bu torpaqlarda böyük quruculuq işləri həyata keçirilir. Görülən işlərin miqyası çox böyükdür. Çünki işğalçılar həmin ərazilərdə hər şeyi tamamilə məhv ediblər. Ona görə də, dövlətimiz üçün bu gün başlıca prioritet Qarabağ və Şərqi Zəngəzurda quruculuq və bərpa işlərini ən yüksək səviyyədə həyata keçirməkdir.**

## 51 ölkə və 12 beynəlxalq təşkilatdan 100 nümayəndə

Qeyd edək ki, torpaqlarımız işğaldan azad edildikdən sonra xarici qonaqlar da bu ərazilərə mütəmadi səfərlər edirlər. Eləcə də, ölkəmizdəki diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura səfərləri təşkil olunur. Yeri gəlmişkən, Azərbaycan Prezidentinin tapşırığına əsasən, oktyabrın 31-də ölkəmizdə akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxslərinin Cəbrayıl və Zəngilan rayonlarına səfəri baş tutub. Səfərdə 51 ölkə və 12 beynəlxalq təşkilatdan ümumilikdə 100-dən artıq nümayəndə iştirak edib. Bu, diplomatik korpusun azad olunmuş ərazilərimizə sayca 20-ci səfəridir.

Bütövlükdə, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura səfərlərinin təşkil olunması bu ərazilərdə ermənilər tərəfindən törədilmiş vəhşiliklərin dünya ictimaiyyətinə çatdırılması və erməni yalanlarının ifşası baxımından da mühüm əhəmiyyətə malikdir. Azərbaycan 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbəni diplomatik müstəvidə də davam etdirir. Bütün bunların fonunda Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin işğaldan azad edilmiş ərazilərimizə səfərlərinin təşkil edilməsi çox uğurlu addımdır.



## Diplomatlar Qarabağ və Şərqi Zəngəzurun dirçəlişinə şahidlik edir

44 günlük müharibədən əvvəlki dövrə qədər ermənilər ərazilərimizdə törətdikləri vəhşilikləri gizlədərək dünya ictimaiyyətini aldadırdılar. Lakin ordumuz torpaqlarımızı düşmən tapdağından azad etdikdən sonra ermənilərin ərazilərimizdə törətdikləri vəhşilikləri gizlətmək imkanını itirdilər və indi onların 30 il ərzində etdikləri qeyri-insani əməllər bütün dünya ictimaiyyətinin diqqətinə çatdırılır.

Hazırda isə diplomatlar azad olunmuş ərazilərdə möhtəşəm quruculuq işlərinə də şahidlik edirlər. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiəti ilə baş tutan 20-ci səfər zamanı da diplomatik korpus nümayəndələri Cəbrayıl və Zəngilan rayonlarında aparılan bərpa və yenidənqurma işləri ilə əyani tanış olublar. Onlar "Böyük Qayıdış" Proqramı çərçivəsində uğurla icra olunan layihələr, habelə regionun strateji əhəmiyyətini artıran Zəngəzur dəhlizi layihəsi və s. barədə məlumat əldə ediblər.

Belə ki, Azərbaycanda akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxsləri oktyabrın 31-də Cəbrayıl rayonunun Horovlu kəndində olublar. Burada onlara işğaldan azad edilməndən sonra kənddə aparılmış bərpa-quruculuq işləri və yaradılmış şərait barədə məlumat verilib.

Diplomatlar daha sonra Həkəri çayının Zəngilan rayonu ərazisindən keçən hissəsində yerləşəcək Həkəri dəmir yolu stansiyası ilə tanış olublar. Diplomatik korpusun nümayəndələri burada görülən işlər, dəmir yolunun və stansiyanın tikintisi ilə bağlı həyata keçirilmiş və gələcəkdə görüləcək işlər barədə məlumatlandırılıb. Bildirilib ki, bu dəmir yolu Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin (TRIPP) tərkib hissəsi olacaq.

Səfər çərçivəsində iştirakçılar, həmçinin Zəngilan məscidi ilə tanış olublar. Bundan əlavə, Zəngilan şəhərindəki yaşayış kompleksi, məktəb və uşaq bağçası binalarına baxış da səfər proqramının tərkib hissəsi olub.



## Zəngəzur dəhlizi mövzusunda brifinq

Sonra Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələri üçün Zəngilan şəhərindəki Konqres Mərkəzində "Zəngəzur dəhlizi - regional nəqliyyat şəbəkəsi" mövzusunda brifinq keçirilib. Brifinqdə güclü beynəlxalq tərəfdaşlığın, eləcə də infrastruktur və dəmir yolu nəqliyyatının modernləşdirilməsinin ölkənin inkişafının əsas amilləri olduğu bildirilib. Qeyd edilib ki, bu nailiyyətlər Azərbaycanın əsas nəqliyyat mərkəzinə necə çevrildiyini göstərir.

Təqdimat zamanı nəqliyyat və dəniz infrastrukturuna xüsusi diqqət yetirilib. Vurğulanıb ki, bu gün ölkənin dəmir yolu ilə yükdaşımalarının həcmi artıb və Azərbaycan Xəzər dənizində ən böyük dəniz donanmasına malikdir.

Bütövlükdə, diplomatik korpus nümayəndələrinin səfəri həyata keçirilən işlərin miqyasını və regionun inkişaf potensialını yaxından görmək, həmçinin işğaldan azad edilmiş ərazilərin davamlı bərpası, sosial-iqtisadi dirçəlişi və reinteqrasiyasının təmin olunması istiqamətində Azərbaycanın səylərini dəyərləndirmək imkanı yaradır.

*Nardar BAYRAMLI*

# Yeni Azərbaycan Partiyası və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib






Noyabrın 3-də Yeni Azərbaycan Partiyasının (YAP) Azərbaycan Milli Konservatoriyası ilə birgə təşkil etdiyi 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdən öncə rəssam-monumentalist Çingiz Abasovun “30 il və 44 gün” tablosunun təqdimatı olub.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin edən şanlı Zəfərimizin beşinci ildönümü münasibətilə təbrik edib. O qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə elan edilmiş “Konstitusiya və Suverenlik İli” çərçivəsində Yeni Azərbaycan Partiyası tərəfindən keçirilən silsilə tədbirlər ölkəmizin müstəqil inkişaf yoluna, eləcə də möhtəşəm Zəfərimizin tarixi və ictimai-siyasi əsaslarına, yeni mərhələdə suveren Azərbaycanın qarşısında duran əsas hədəflərə nəzər salınması baxımından mühüm əhəmiyyət kəsb edir.

Tahir Budaqov vurğulayıb ki, müasir dövlətçilik tariximizin zirvə nöqtəsi - ən qürurverici məqamı olan möhtəşəm Zəfərimiz asanlıqla əldə olunmamışdır: “Müstəqillik dövründə ölkəmizə rəhbərliyi zamanı Ümummilli Lider Heydər Əliyev Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin azad olunmasını dövlət siyasətinin bir nömrəli məsələsi - strateji prioriteti kimi müəyyən etmişdir. Onun liderliyi ilə bu strateji hədəfə çatmaq üçün məqsədyönlü addımlar atılmış, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda ardıcıl işlər görülərək Azərbaycanı böyük Zəfərə aparan yolun əsası qoyulmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev bu siyasəti müasir dövrün çağırışları və reallıqlarına uyğun zənginləşdirərək müvəffəqiyyətlə davam etdirməklə, Ermənistanın təcavüzkar siyasətinə göz yuman bir sıra güc mərkəzlərinin ikili standartlar siyasətinə, beynəlxalq təşkilatların selektiv yanaşmasına, mürəkkəb geostrateji şəraitə baxmayaraq, Vətənin bütövlüyünü, tarixi ədaləti və milli ləyaqəti bərpa etmək uğrunda haqq mübarizəsini qələbə ilə başa vuraraq möhtəşəm Zəfərə nail olmuş, ata vəsiyyəti və xalqa vədini şərəflə yerinə yetirməklə Azərbaycanı Heydər Əliyevin görmək istədiyi kimi qalib, qüdrətli və əzəmətli dövlətə çevirmişdir”.

YAP Sədrinin müavini bildirib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq qələbə qazanaraq öz ərazi bütövlüyünü, 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində isə tam suverenliyini bərpa edərək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan bu gün regionun çoxtərəfli işbirliyi məkanına çevrilməsində maraqlı olmaqla beynəlxalq hüquq normalarına və milli maraqlara əsaslanan prinsipial mövqeyinə sadiqliyini əyani şəkildə nümayiş etdirir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin siyasəti konstruktiv xarakter daşımaqla regionun dialoq, əməkdaşlıq və inteqrasiya məkanına çevrilməsinə hədəflənmişdir ki, bu da sülh naminə etimad quruculuğunun həyata keçirilməsi baxımından olduqca böyük önəmə malikdir: “Dövlət başçısının qeyd etdiyi kimi: “Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu”. Bu gün yeni reallıqlar fonunda sülh müqaviləsinin imzalanması və kommunikasiyaların bərpası regional təhlükəsizlik kontekstində strateji gündəliyin önəmli tərkib hissəsidir”.

Tahir Budaqov qeyd edib ki, Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşən insanların doğma torpaqlarına layiqli qayıdışının təmin edilməsi qarşıda duran çox mühüm hədəflərdəndir: “İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsi Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyənləşdirilmişdir. Bu gün həmin ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilməklə müasir infrastruktur yaradılmaqdadır. Artıq Qarabağ və Şərqi Zəngəzurda mühüm yol-nəqliyyat, enerji təminatı və digər infrastruktur layihələri gerçəkləşdirilmiş, onlarla yaşayış məntəqəsinin təməli qoyulmuş və bir sıra şəhər, kənd və qəsəbələrdə əhalinin yaşayışı təmin edilmişdir. Bütün bunlar dayanıqlı məskunlaşma və müasir standartlara uyğun yüksək keyfiyyətli həyat şəraitinin təmini baxımından böyük əhəmiyyətə malikdir. Nəticə etibarilə, yüz minlərlə soydaşımızın yurd həsrətinə son qoyulması, onların ata-baba torpaqlarına qayıdışının təmin olunması mənəvi-siyasi və sosial-iqtisadi əhəmiyyətə malik olmaqla tarixi ədalətin təntənəsidir”.

“Azərbaycan dövləti və xalqı mübariz Vətən övladlarının - ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda qəhrəmancasına döyüşərək Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış şəhidlərin əziz xatirəsini daim uca tutur. Müzəffər Ali Baş Komandanımızın 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad olunması barədə müjdəni məhz Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciəti zamanı verməsi Vətənin bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhuna əli ehtiram nümunəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: “Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq” , - deyə YAP Mərkəzi Aparatının rəhbəri əlavə edib.

Tahir Budaqov söyləyib ki, Azərbaycan xalqının Zəfər salnaməsi - Qələbə dastanı təkcə tarixçilər və siyasətşünasların tədqiqat predmeti deyil: “Bu Zəfər həm də müstəsna mənəvi əhəmiyyətə malik olduğu üçün sənət adamlarının xüsusi diqqət mərkəzindədir. Möhtəşəm Qələbəmiz haqqında əsərlərin, o cümlədən rəsm əsərlərinin ərsəyə gətirilməsi və digər yaradıcılıq işləri bu tarixi hadisənin ictimai yaddaşda - milli təfəkkürdə əbədiləşdirilməsi baxımından çox önəmlidir. Ona görə də bugünkü tədbir çərçivəsində təqdimatını etdiyimiz rəssam-monumentalist Çingiz Abasovun “30 il və 44 gün” tablosu şanlı Qələbəmizin təbliği və xalqımızın vətənpərvərlik ruhunun gücləndirilməsi üçün əhəmiyyətlidir”.

“Bu gün qalib Azərbaycan xalqı 8 Noyabr - Zəfər Gününü böyük iftixar və coşquyla qeyd edərək əzəli torpaqlarımızın işğaldan azad olunması və doğma yurd yerlərinə qayıdışın hədsiz sevincini yaşamaqdadır. Şübhə yoxdur ki, dövlət başçısı, partiyamızın Sədri cənab İlham Əliyevin qətiyyətli siyasəti, xalqımızın sarsılmaz birliyi sayəsində Azərbaycan bundan sonra da möhtəşəm nailiyyətlərə imza atmaqla yeni qələbələr qazanacaq, Vətənimizin hər bir guşəsində qürurla ucaldılan üçrəngli bayrağımız daim zirvələrdə əzəmətlə dalğalanacaqdır. Qalib Azərbaycanın sarsılmaz qüdrətinin ifadəsi olan 8 Noyabr - Zəfər Günü, həmçinin qarşıdan gələn 9 Noyabr - Dövlət Bayrağı Günü və 12 Noyabr - Konstitusiya Günü münasibətilə partiyamızın bütün üzvlərini, böyük xalqımızı təbrik edir, hər birinizə möhkəm cansağlığı və dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycanın daha parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram. Yaşasın müstəqil və qalib Azərbaycan! Eşq olsun Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə!” ,- deyə YAP Sədrinin müavini vurğulayıb.




Çıxış edən Azərbaycan Milli Konservatoriyasının rektoru, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Kamilə Dadaş-zadə qeyd edib ki, hər bir xalqın tarixində elə əlamətdar gün var ki, onu “əsrə bərabər gün” hesab etmək olar: “Azərbaycan xalqının həyatında belə məqamlardan biri, heç şübhəsiz ki, 2020-ci ilin 8 noyabr gününə təsadüf edir. Lakin düşünürəm ki, öz tarixi əhəmiyyəti və mənəvi yükü etibarilə həmin günü bir əsrə deyil, “əsrlərə bərabər gün” adlandırmaq olar. Çünki həmin gün xalqımızın çoxəsrlik qəhrəmanlıq salnaməsinin yeni şanlı səhifəsi yazıldı və eyni zamanda, həmin gün əldə etdiyimiz tarixi Qələbə Azərbaycanın uzunmüddətli, möhkəm və dayanaqlı inkişaf yolunu təmin etdi. Beş il bundan öncə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə milli Ordumuzun misilsiz qəhrəmanlığı nəticəsində, şəhidlərimizin canı və qanı bahasına Azərbaycan torpaqlarının işğalına son qoyuldu, tarixi ədalət zəfər çaldı. Müasir hərb sənətinin ən parlaq səhifələrindən biri olan “Dəmir yumruq” əməliyyatı, təbii ki, tarix kitablarına fenomenal hadisə kimi daxil olacaq və mütəxəssislər tərəfindən araşdırılıb layiqincə dəyərləndiriləcək. Şübhəsiz ki, bu zaman digər mühüm amillərlə yanaşı, Zəfərimizi təmin edən bir faktorun da rolu qeyd olunacaq ki, bu da “xalq, iqtidar və ordu birliyi” formuludur. Qələbəmizin ideoloji təməlini təşkil etmiş bu formul Azərbaycan xalqının əzmini bir daha nümayiş etdirdi”.




Rektor vurğulayıb ki, tarixi Zəfər Azərbaycanın perspektiv inkişaf yollarını da müəyyən etdi: “Qələbədən sonra Azərbaycan özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Prezident İham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən Böyük Qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma və bərpa işləri nəticəsində əzəli, qədim torpaqlarımız sürətlə və ən mütərəqqi üsullarla ucaldılan müasir yaşayış mərkəzlərinə çevrilir”.




“Zəfərin beşinci ildönümündə tam əminliklə qeyd etmək olar ki, hazırda Azərbaycan beynəlxalq müstəvidə yalnız müharibənin qalibi kimi deyil, həm də regionda sülh, sabitlik və əməkdaşlığın əsas təşəbbüskarı və təminatçısı kimi qəbul olunur. Beynəlxalq səviyyədə qazandığımız nüfuz sayəsində ölkəmiz dünyada baş verən mürəkkəb proseslərdə fəal iştirak edir. Bu, yaşadığımız dövrün reallığıdır və bu reallığı hər kəs qəbul etmək məcburiyyətindədir”, - deyə Kamilə Dadaş-zadə əlavə edib.




Rektor bildirib ki, şanlı Qələbəmizin hər ildönümü bu taleyüklü tarixi hadisənin əhəmiyyətini, önəmini daha dərindən, bütün əzəməti ilə dərk etmək üçün imkan yaradır: “Bu gün Azərbaycan Milli Konservatoriyası kollektivinin tədbir iştirakçılarının diqqətinə təqdim edəcəyi konsert “Zəfərin sədası” adlanır. Düşünürük ki, bu adın böyük bir rəmzi mənası var. İllər ötəcək, qərinələr dəyişəcək, amma 2020-ci ildə Vətən müharibəsində əldə etdiyimiz Zəfər yenə də hər bir azərbaycanlının qəlbində əzəmətli bir əks-səda kimi səslənəcəkdir. Bu isə o deməkdir ki, Azərbaycan durduqca, Zəfərimiz əbədi qürur mənbəyimiz olaraq

davamı 5-ci səhifədə

# Yeni Azərbaycan Partiyası və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib


















əvvəli 4-cü səhifədə

yaşayacaqdır".

Sonra tədbirdə şəhid İsmayıl Kərimlinin atası Ceyhun Kərimov çıxış edib. "Bu gün biz Böyük Qələbəmizin 5-ci ildönümünü qeyd edirik. Artıq beş ildir ki, 30 ilə yaxın düşmən tapdağı altında qalmış torpaqlarımız işğaldan azad olunub, Azərbaycanın ərazi bütövlüyü bərpa edilib. Zəfər Günü möhtəşəm bir əsərdir və hər bir böyük əsər kimi bu Zəfərin də öz memarları var. Böyük Qələbəmizi qeyd edərkən Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasını və Onun xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışını xatırlayırıq. Məhz həmin tarixi qayıdış Zəfər salnaməmizin ilk səhifəsini yazdı. Elə o andan etibarən biz addım-addım tarixi Qələbəmizə doğru irəliləməyə başladıq", - deyən şəhid atası əlavə edib ki, Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu böyük məsuliyyəti öz üzərinə götürərək xalq qarşısında and içdi və andına sadiq qalaraq Azərbaycanı tarixi Zəfərə qovuşdurdu.

Ceyhun Kərimovun sözlərinə görə, şübhəsiz ki, bu çətin və şərəfli yolda Prezident İlham Əliyevə ən böyük mənəvi dayaq və dəstək  Birinci vitse-prezident Mehriban xanım Əliyeva olub: "Şəhid ailələri olaraq həmin günlərdə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bizə göstərdiyi diqqət və qayğını dərindən hiss etdik. Bu gün də şəhid ailələri bu diqqət və qayğını daim öz üzərində hiss edir".

"Azad olunmuş torpaqlarda Böyük Qayıdış layihəsi həyata keçirilir, yeni kənd və qəsəbələr salınır, şəhərlərimiz dirçəldilir. Əminəm ki, bu torpaqlar uğrunda canlarını fəda etmiş igidlərimizin ruhu şaddır. Böyük qürur və fəxarət hissi ilə deyirəm ki, qalib xalqın nümayəndəsi, Yeni Azərbaycan Partiyasının üzvü, qəhrəman atası və azərbaycanlıyam", - deyə şəhid atası əlavə edib.

Vətən Müharibəsi Qəhrəmanı, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi, polkovnik Anar Mirzəyev isə çıxışında qeyd edib ki, müasir müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Onun sözlərinə görə, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Azərbaycan Silahlı Qüvvələri 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük müharibədə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün döyüş əməliyyatlarını yüksək səviyyədə həyata keçirməklə mənfur düşməni diz çökdürdü, şanlı Zəfər qazandı və tarixi ədaləti, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan hərbçilərinin torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdə şücaət göstərməsi, bu yolda şəhidlik zirvəsinə ucalması xalqımızın yenilməzlik, mətinlik və qəhrəmanlığının ifadəsi oldu".

A.Mirzəyev vurğulayıb ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı Qələbəsinin şahidi oldu: "Azərbaycan öz haqq savaşında Zəfər çaldı. Cəmi 44 gün ərzində Ermənistan ordusu, hərbi texnikası, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü göstərdi. Dövlətimizin başçısı "Şuşasız bizim işimiz yarımçıq olar" söyləyəndə xalqımızda belə bir əminlik yarandı ki, Qarabağın tacının, Azərbaycanın döyünən ürəyinin işğaldan azad edilməsi əsas hədəfdir. Dastana çevrilən Şuşa əməliyyatı bu gün də inkişaf etmiş ölkələrin hərbi ekspertləri tərəfindən təhlil edilir, öyrənilir. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu, bizim şanlı Zəfərimizin günüdür. İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun malik olduğu imkanların dünyaya təqdimatı oldu. Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və maddi-texniki bazasını möhkəmləndirən Azərbaycan Silahlı Qüvvələri bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz xalqına Qələbəni bəxş etmiş müzəffər orduya çevrilmişdir".

Vətən Müharibəsi Qəhrəmanı əlavə edib ki, 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunub: "Bu, həm şanlı Zəfərimiz - Azərbaycanın suveren hüquqlarının möhkəmləndirilməsi, həm də dövlətimizin əsas hüquqi sənədi olan Konstitusiyanın qəbulunun 30 illiyi ilə bağlıdır. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası dövlət quruculuğunun təməlini təşkil edir. Bu sənəd xalqın iradəsini, hüquq və azadlıqlarını, dövlətin idarəetmə prinsiplərini özündə ehtiva edir. Azərbaycan tarix boyu müxtəlif çətinliklərdən keçsə də, artıq müstəqil, suveren və güclü bir dövlət kimi dünya arenasında layiqli yerini tutub. Bu gün Azərbaycanın hər qarış torpağında üçrəngli bayrağımızın dalğalandığını qürurla qeyd edirik".

Daha sonra "30 il və 44 gün" tablosunun müəllifi rəssam Çingiz Abasov çıxış edib. O qeyd edib ki, bu gün xalqımızın qəhrəmanlığını, birliyini və əyilməz iradəsini iftixarla xatırlayır, ədalətin bərpa olunduğu  möhtəşəm günün qürurunu bir daha yaşayırıq: "Bu gün burada Zəfərimizə həsr olunan "30 il və 44 gün"  əsərimi təqdim etməkdən böyük qürur duyuram. Çalışdım ki, bu əsərdə Vətənimizin otuz illik tarixini, xalqımızın qəhrəman ruhunu, dözümü və inamını əks etdirim. Ulu Öndərimiz Heydər Əliyev deyirdi ki, "Qarabağ bizim qəlbimizdədir, ruhumuzdadır. Gün gələcək, biz Qarabağa qayıdacağıq". İllər sonra Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev həmin inamın üzərinə öz möhtəşəm nida işarəsini qoydu: "Qarabağ Azərbaycandır!". Bu gün biz həmin gerçəkliyi yaşayırıq, Qarabağ azaddır və dirçəlir. Bu Qələbə xalqımızın birliyinin, dövlətimizin qüdrətinin və milli iradəmizin rəmzidir. Qoy üçrəngli bayrağımız daim azad Qarabağ səmasında dalğalansın".

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra 8 Noyabr - Zəfər Gününə həsr edilmiş konsert proqramı təqdim olunub.

# Bakı kolonializmə qarşı - Afrika ölkələri Azərbaycanın dəstəyini hiss edir

XXI əsr texnoloji tərəqqi və beynəlxalq hüququn tam təsbiti və təmini əsri sayılsa da, dünyanın bəzi nöqtələri hələ də XIX əsrin köhnə zehniyyətindən və siyasi vərdişlərindən tam qurtula bilməyib. Müasir dünyada bir sıra Qərb dövlətlərinin - xüsusilə Fransa və Belçikanın - keçmiş müstəmləkəçilik ruhundan qaynaqlanan imperial düşüncədən əl çəkməməsi yeni bir reallığı ortaya qoyur: neokolonializm. Bu anlayış artıq silahlı işğallarla deyil, iqtisadi asılılıq, siyasi təzyiq, informasiya manipulyasiyası və "dəyərlər ixracı" adı altında yürüdülən gizli hegemonluq forması kimi təzahür edir.

Afrika, Asiya və Latın Amerikası ölkələrinin, dənizaşırılarının nümayəndələri dəfələrlə bəyan ediblər ki, bu gün onların qarşılaşdığı "müasir kolonializm" formaları keçmişdən daha incə, amma daha təhlükəlidir. Fransanın Qərbi Afrikada, Belçikanın isə Mərkəzi Afrika regionunda saxladığı təsir dairəsi, iqtisadi monopoliyalar, valyuta və resurs nəzarəti kimi amillər hələ də həmin xalqların inkişafını ləngidir.

Bu fon qarşısında Azərbaycan öz tarixi ədalət, suverenlik və beynəlxalq bərabərlik prinsiplərinə sadiq qalaraq, neokolonializmə qarşı qlobal mübarizədə fəal tərəf kimi çıxış edir. Bakı bu gün təkcə regional enerji mərkəzi deyil, həm də yeni beynəlxalq həmrəylik platformasına çevrilib. Bu istiqamətdə yaradılan Bakı Təşəbbüs Qrupu məhz bu dövlətlərin, istismara məruz qalan xalqların, sömürgəçiliklə üzləşən cəmiyyətlərin hüquqlarının müdafiəsini təmin edir.

Yeri gəlmişkən, bir neçə gün öncə Belçikanın imperialist siyasətindən narazı olan ölkələrin nümayəndələrinin Bakıda toplanması da təsadüfi deyil - bu, Azərbaycanın ədalət və müstəqillik mübarizəsində birləşdirici mərkəzə çevrildiyinin göstəricisidir. Bakıya olan ümid anlaşılandır - Azərbaycanın təşəbbüsləri bu gün həm Afrika İttifaqı, həm Qoşulmama Hərəkatı, həm də BMT platformasında yeni bir diskurs, postkolonial ədalət və real suverenlik ideyasını gündəmə gətirib.

## 8 ölkənin nümayəndələri Bakıya gəldi...

Ölkəmizdə ilk dəfə olaraq Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə Belçikanın müstəmləkə keçmişinə və onun bu günə qədər davam edən ağır fəsadlarına həsr olunmuş "Belçika müstəmləkəçiliyi: tanınma və məsuliyyət" adlı beynəlxalq konfrans keçirilib. Konfransda Belçikanın keçmiş müstəmləkələri - Konqo Demokratik Respublikası, Ruanda və Burundidən olan nümayəndələr, diplomatlar və rəsmi şəxslər iştirak ediblər. Ümumilikdə, tədbirə 8 ölkədən beynəlxalq hüquq üzrə ixtisaslaşmış mütəxəssislər, tarixçilər, tədqiqatçılar, vətəndaş cəmiyyəti fəalları və reparasiya məsələləri üzrə ekspertlər qatılıblar. İştirakçılar Belçikanın müstəmləkə dövründə törətdiyi cinayətləri, onun neokolonial siyasətini və müstəmləkəçilikdən irəli gələn kompensasiya (reparasiya) məsələlərini müzakirə ediblər. Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu beynəlxalq hüquq çərçivəsində Belçikanın keçmiş müstəmləkələrində törətdiyi cinayətlərə görə kompensasiya tələbinin beynəlxalq səviyyəyə çıxarılması və bu mövzunun beynəlxalq təşkilatların gündəliyinə salınması istiqamətində iş aparır.

Konfransda çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, Mərkəzi Afrika ölkələrində baş verən insanlıq faciələri hamıya yaxşı məlumdur. Qlobal icma üçün bu məlumatlar nəzərə alınmalıdır. Heç kim bu faktları tarixdən silə bilməz. O qeyd edib ki, kolonial siyasət hələ də davam edir. Lakin bəzi tərəflər köhnə reparasiya tələblərini və qarşıdurmaları beynəlxalq ictimaiyyətin nəzərindən yayındırmağa çalışır. Daha sonra bildirib ki, XVIII-XX əsrlərdə bu ölkənin kolonial siyasəti zamanı törədilən insanlığa qarşı qəddar cinayətlər barədə dünya ictimaiyyəti kifayət qədər məlumatlıdır. Lakin aidiyyəti beynəlxalq təşkilatlar bu məsələlərə zəruri reaksiyanı göstərmir, reparasiya və kompensasiya mövzularını müzakirə etmirlər. "Biz beynəlxalq qeyri-hökumət təşkilatı olaraq dekolonizasiya prosesində mühüm rol oynayan bir təşkilat kimi, bu mövzunu beynəlxalq təşkilatların gündəliyinə gətirməyə çalışırıq. Əminik ki, yaxın illərdə reparasiya və kompensasiya məsələlərində beynəlxalq reaksiya artacaq və dünya ictimaiyyəti Konqo Demokratik Respublikası, Burundi və Ruandaya qarşı ədalətli mövqe nümayiş etdirəcək", -deyən A.Abbasov söyləyib ki, Burundi, Ruanda və Konqo Demokratik Respublikasının nümayəndələri, eləcə də oradakı qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq qurulur. Onlar mövzunu kompensasiya və reparasiya əsasında irəli sürür və beynəlxalq təşkilatlardan, həmçinin aidiyyəti ölkələrdən kompensasiyalar tələb edirlər. BTQ isə bu istiqamətdə beynəlxalq hüquq çərçivəsində onlara dəstək göstərməyə çalışacaq.

"Bakı Təşəbbüs Qrupu əvvəlcə Fransanın dənizaşırı əraziləri ilə əməkdaşlığa başlamışdı. Bu əməkdaşlıq həmin ərazilərin nümayəndələrinin səlahiyyətli qərarına əsaslanaraq qurulmuşdu. Daha sonra Niderlandın və digər ölkələrin müstəmləkəçiliyi dövründən qalmış ərazilərlə əməkdaşlığa başladıq. Hazırda bu işləri Belçika müstəmləkələri ilə davam etdiririk. Qeyd etmək istərdik ki, Bakı Təşəbbüs Qrupu adətən müəyyən bir ölkə üzrə fəaliyyət göstərmir. Biz yalnız müstəmləkəçilikdən təsirlənmiş ərazilərin müraciətlərini araşdırır, qiymətləndirir və əməkdaşlığa başlayırıq. Gələcəkdə belə müraciətlər daxil olduqda, tərəfimizdən araşdırılacaq və müvafiq əməkdaşlıqlar qurulacaq", - deyə A.Abbasov vurğulayıb.



## Afrika xalqları ədalət tələb edir!

Tədbirdə çıxış edən SHINE (İnteqrasiya, Qonşuluq və Bərabərlik) Təşkilatının təsisçisi və icraçı direktoru burundili Jan-Mari Nibizi bildirib ki, avropalılar "Samandari" adlandırılan mədəniyyət nümunələrini məhv ediblər: "Samandari həqiqətən möhtəşəm idi. Bu gün də kolonializmin təsirləri qalır. Bundan əlavə, qədim əşyalar oğurlanıb. Burundi 10 min qədim əşyanın geri qaytarılmasını tələb edir. Dini abidələr də dağıdılıb, çünki bütün qədim yazılar məhv edilmişdi".

"Wetsi Art Gallery"nin təsisçisi və direktoru Anne Vetsi Mpoma isə deyib ki, bütün təhsil sistemi və kilsə təsirləri nəticədə aşağılıq hissi yaratmaq və kolonizasiyanı möhkəmləndirmək üçün istifadə olunub. Hətta bu gün bəzi məktəblərdə hələ də kolonizasiyanın "faydaları" vurğulanır, onun mənfi tərəfləri isə minimal şəkildə göstərilir, rejimin zorakılığı və vəhşiliyi isə əhəmiyyətsizləşdirilir. O bildirib ki, 1960-cı ildə Konqo müstəqillik qazananda Belçikada koloniyaları idarə edən nazirlik bir anda Xarici İşlər Nazirliyinə çevrildi. Bütün əməkdaşlar və struktur qorundu. Faktiki olaraq dekolonizasiya işləri aparılmadı. Müstəqilliyə baxmayaraq, hegemonik hekayələr dəyişdirilmədi, əksinə, gücləndi, məktəb dərslikləri yenilənmədi. Bu gün - 2025-ci ildə kolonizasiyanın sona çatmasından 65 il keçməsinə baxmayaraq, Belçikada afrodilli insanlar, təşkilatlar və vətəndaş hüquqları müdafiəçiləri hələ də bu tarixi hekayələri dəyişdirmək və kolonial təhrifləri aradan qaldırmaq üçün çalışırlar.

Sülh Naminə Cənubi Kivu Konqolu Qadınlar Qrupunun üzvü, insan haqları müdafiəçisi Sadiki Nyabisoki Agnes isə bildirib ki, patriarxal və ənənəvi strukturlar Konqo cəmiyyətində dərin kök salıb. Bu da kişilər və qadınlar arasındakı münasibətləri qeyri-bərabər şəkildə formalaşdırıb. 1960-cı ildə müstəqillik əldə edilməsinə baxmayaraq, kolonial prinsiplər qanunvericilikdə uzun müddət qaldı: "Kolonial dövrdə qadınlar hüquqi subyekt kimi deyil, xidmətçi, əməkçi və bəzən cinsi istismar obyekti kimi qəbul edilirdi. Bu zorakılıqlar isə nadir hallarda cəzalandırılırdı".

Konqo Demokratik Respublikasının BƏƏ-nin Əbu-Dabi şəhərindəki səfirliyində müşavir Kitulu Aduyenzi çıxışında vurğulayıb ki, kolonial cinayətlərin tanınmasından sonra müstəmləkəyə çevrilmiş ölkə ictimai üzr tələb edir. İctimai üzrdən sonra konkret kompensasiyalar tələb olunur. O bildirib ki, Konqo, Burundi və Ruanda Belçika ilə bağlıdır. Konqoya sərmayə qoymaq istəyən hansısa investor əvvəlcə Belçikadan məlumat alır. Belçika suverenliyimizi tanımayan, ləyaqətimizi geri qaytarmayan və ədalət təmin etməyən ölkə kimi görünürsə, iş görmək çətinləşir. "Bu konfrans çox önəmlidir. Belçika ilə koloniyalaşdırılmış ölkələr arasında ədalət, suverenlik və qarşılıqlı hörmət əsasında real əməkdaşlıq müqavilələri yaratmaq lazımdır. Hazırda mövcud olan bütün müqavilələr kolonializmin izlərini daşıyır. Biz, həmçinin müstəmləkəçiliyi dəyişdirməli və göstərməliyik",- deyə K. Aduyenzi vurğulayıb.

Burundili jurnalist, Reparasiyalar üzrə Parlament Komissiyasının üzvü Aline Dusabe isə dpeyib ki, Burundidə həm inzibati qurumlarda, həm də məktəblərdə adlarla bağlı diskriminasiya mövcuddur. "Mən 1977-ci ildə doğulmuşam, amma hələ də müsəlman olduğum üçün ayrı-seçkiliyin təsirini hiss edirəm. İndi Burundidə hakimiyyət "Rutu"lardadır, "Tutsi"lər "müstəmləkə uşaqları" kimi çağırılır, müsəlman "Swahili"lər isə hələ də mənfi etiketlərlə üzləşir. Bu vəziyyət sosial dəyişiklik, ədalət, bağışlanma və barışığın zəruriliyini göstərir", - deyə burundili jurnalist vurğulayıb.

# Tarixi Zəfərdən yeni inşa mərhələsinə

Azərbaycan xalqı 2020-ci ilin payızında tarixinin ən şanlı səhifəsini yazdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün ərzində işğal altındakı torpaqları azad etdi. Qarabağda və Şərqi Zəngəzurda qazanılan bu Qələbə xalqımızın birliyi, dövlətin gücü və Prezidentin müdrik rəhbərliyinin nəticəsi idi.

Lakin Zəfər yalnız müharibə meydanında qazanılmadı. Əsl qələbə o zaman başlayır ki, torpaqlarda həyat yenidən canlanır, dağıdılmış şəhərlər və kəndlər bərpa olunur, xalq doğma yurduna qayıdır.

Cənab Prezident İlham Əliyev bu istiqamətdə tarixi bir missiyanı həyata keçirir: Qarabağı və Şərqi Zəngəzuru yenidən dirçəltmək, orada müasir və dayanıqlı həyat qurmaq.

Prezident İlham Əliyev illər boyu güclü dövlət və qüdrətli ordu quruculuğunu ölkənin əsas prioriteti kimi müəyyənləşdirmişdi. Onun uzaqgörən siyasəti nəticəsində Azərbaycan Ordusu XXI əsrin müasir tələblərinə cavab verən güclü hərbi qüvvəyə çevrildi.

Diplomatik arenada, beynəlxalq təşkilatlarda Prezidentin prinsipial mövqeyi Azərbaycanın haqlı səsini dünyaya çatdırdı.

44 günlük Vətən müharibəsi zamanı İlham Əliyevin hər çıxışı, hər addımı xalqda böyük ruh yüksəkliyi yaratdı. O, həm döyüş meydanında qələbə qazanan sərkərdə, həm də dünyaya ədaləti bəyan edən lider kimi tarixə düşdü.

Zəfərdən dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə azad olunmuş torpaqlarda genişmiqyaslı bərpa və yenidənqurma işlərinə start verildi.

Bu gün Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyat sürətlə bərpa olunur. Dağıdılmış şəhərlər yenidən qurulur, infrastruktur tamamilə yenilənir, yollar, körpülər, tunellər, enerji xətləri çəkilir.

Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanlarının rekord müddətdə istifadəyə verilməsi bu torpaqlarda görülən işlərin miqyasını aydın göstərir. Bu hava limanları Qarabağın dünyaya açılan qapısı, Azərbaycanın gələcək turizm və iqtisadi mərkəzlərinin dayağıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Böyük Qayıdış" proqramı azad edilmiş torpaqlarda həyatın tam bərpasına yönəlib. Bu proqram çərçivəsində yeni yaşayış massivləri, məktəblər, tibb ocaqları, sosial və iqtisadi obyektlər tikilir.

Zəngilanın Ağalı kəndində yaradılan "ağıllı kənd" layihəsi bu işlərin bariz nümunəsidir. Burada alternativ enerji mənbələri ilə təmin olunan evlər, müasir məktəblər və ekoloji təmiz təsərrüfat sahələri fəaliyyət göstərir. Artıq ilk ailələr doğma torpaqlarına qayıdıb. Bu, həm texnoloji, həm də mənəvi baxımdan əlamətdar hadisədir - çünki hər bir qayıdış bir həyatın yenidən doğulması deməkdir.

Prezident İlham Əliyevin xüsusi diqqəti ilə Şuşa şəhəri - Azərbaycanın mədəniyyət paytaxtı - bu gün tamamilə yenidən qurulur.

İşğal dövründə dağıdılmış tarixi abidələr, məscidlər, məbədlər, muzeylər və mədəniyyət ocaqları bərpa olunur.

Bu gün Şuşa təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının mədəniyyət paytaxtı kimi tanınır. O, həm tariximizin, həm qürurumuzun, həm də milli birliyimizin simvoluna çevrilib.

Cənab Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji zonası" elan edilib.

Bu ərazilərdə günəş və külək enerjisi stansiyaları qurulur, alternativ enerji layihələri reallaşdırılır. Məqsəd yalnız iqtisadi inkişaf deyil, həm də ekoloji tarazlığın bərpasıdır.

Zəngilan, Cəbrayıl, Kəlbəcər və Laçın rayonlarında bu istiqamətdə beynəlxalq tərəfdaşlarla böyük layihələr həyata keçirilir.

Cənab Prezident hər dəfə azad edilmiş torpaqlara səfər edir, görülən işləri şəxsən yerində izləyir, yeni layihələrin təməlqoyma mərasimlərində iştirak edir.

İşğaldan azad olunmuş ərazilərdə görülən işlər təkcə iqtisadi və texnoloji baxımdan deyil, həm də mənəvi baxımdan mühüm əhəmiyyət daşıyır.

Bu, dağıntılardan doğulan bir yenidənqurma, viran qalmış şəhərlərin həyatla dolması, torpağa, insana və gələcəyə inamın bərpasıdır.

Qarabağda və Şərqi Zəngəzurda bu gün baş verən hər bir dəyişiklik - ucalan məktəb binası, bərpa olunan abidə, çəkilən yol - Azərbaycanın gələcək nəsillərinə yönəlmiş bir mesajdır:

"Bu torpaqlar əbədi bizimdir və burada həyat əbədi olacaq."

Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ dirçəlir, Qarabağ yaşayır, Qarabağ əbədi Azərbaycanındır!



***Dilarə Cəbrayılova,***
***295 saylı orta məktəbin direktoru,***
***V çağırış Milli Məclisin deputatı***

## Belçika kolonializmi faktlarda...

Qeyd edək ki, Belçikanın müstəmləkə siyasəti nəticəsində Konqo Demokratik Respublikasında 10 milyondan çox insanın ölümü, on minlərlə insanın əllərinin kəsilməsi və ölkənin mədəni resurslarının talan edilməsi kimi ağır cinayətlər baş verib. Belçika Ruanda və Burundidə 1933-cü ildə 600 min etnik kimlik kartı paylayaraq etnik bölgü siyasəti aparıb və bu, sonradan 1972 və 1994-cü illərdə kütləvi soyqırımılara zəmin yaradıb. 1940-1950-ci illərdə 20 min metis uşaq ailələrindən zorla ayrılaraq Belçikaya aparılıb. Belçikada yerləşən Tervuren Muzeyində Belçika müstəmləkəsi dövründə 180 min talan edilmiş artefakt saxlanılır. Ruandadan Tervuren Muzeyinə 40 mindən çox mədəni artefakt (maskalar, könüllü alətlər) talan edilərək aparılıb.

BMT-nin 2019-cu ildə dərc etdiyi hesabatda Belçikanın keçmiş müstəmləkələrinə vurduğu zərərlərlə bağlı faktların araşdırılması, arxivlərin açılması və təzminat ödənilməsi tövsiyə olunur. Hesabatda Konqo Demokratik Respublikası üçün 500 milyard avro, Burundi üçün isə 36 milyard avro həcmində reparasiya tələbi irəli sürülüb. Bununla yanaşı, Belçikanın keçmiş müstəmləkə ərazilərində, xüsusilə kobalt mədənlərinin 80 faizinə nəzarət etməklə neokolonial istismar siyasətini davam etdirir.

***P.İSMAYILOV***

# Əl-Faşerdəki faciə Xocalı soyqırımını xatırladır

## Sudanda daxili münaqişələr minlərlə dinc insanın ölümünə səbəb olub

Hazırda dünyada mürəkkəb geosiyasi hadisələr baş verir, bir sıra ölkələrdə münaqişələr, qanlı toqquşmalar davam etməkdədir. Azərbaycan da tarix boyu terror və işğalın, xalqımızın kütləvi qırğınların və qətliamların qurbanı olub. Son 200 il ərzində ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən kütləvi qırğınların miqyası dəhşətlidir. XX əsrin sonlarında törədilən Xocalı soyqırımı da bunun sübutudur.

Təəssüf ki, hazırda da dünyanın bir sıra ölkələrində dinc insanların qırğınlara məruz qalması davam edir. Noyabrın 1-də Sudanın Azərbaycandakı səfirliyində yerli media nümayəndələri üçün "Sudanda baş verən son hadisələr (Əl-Faşer soyqırımı)" mövzusunda keçirilən mətbuat konfransında səfir Ənəs Eltayeb Elqaylani Mustafanın Əl-Faşer qırğınlarını Xocalı soyqırımı ilə müqayisə etməsi təsadüfi deyil. Diplomat deyib ki, Əl-Faşerdəki faciə Xocalı soyqırımını xatırladır və beynəlxalq təşkilatların susqunluğu insan hüquqlarına və ədalət prinsiplərinə ziddir.

**Əl-Faşer şəhərində nə baş verir?**

Qeyd edək ki, tarix boyu Sudanda dinc əhali dəfələrlə soyqırımına məruz qalıb. Hazırda da daxili silahlı münaqişələr nəticəsində kütləvi qırğınlar davam edir. Əl-Faşer hadisələri də bunun göstəricisidir. Sudan ordusu ilə "Çevik Dəstək Qüvvələri" adlanan üsyançı silahlı qüvvələr arasında üçüncü ildir davam edən müharibə on minlərlə insanın həyatına son qoyub, milyonlarla insanı evlərindən didərgin salıb və ölkənin əksər hissəsini aclıq həddinə çatdırıb. Məlumata görə, 2024-cü ilin mayından Sudanın Əl-Faşer şəhəri mühasirəyə düşüb və bu il oktyabrın sonunda üsyançılar tərəfindən ələ keçirilib. Burada ölənlərin ümumi sayı 14 mindən çoxdur. Təkcə şəhər ələ keçiriləndən sonra iki minə qədər dinc insan qətlə yetirilib.

Əl-Faşer şəhəri Sudanın Darfur bölgəsinin paytaxtıdır. Şəhərdə elektrik yoxdur, bazarlar boş, çörək sexləri bağlanıb, infrastruktur dağıdılıb. Mühasirə dövründə BMT ilə əlaqəsi olmayan könüllü missiyalar əhalinin cəmi 10 faizini qidalandıra bilirdi. Darfurda Sudanın ordusunun son istehkamı hesab olunan bu şəhər, üsyançı dəstələrin əlinə keçsə də, beynəlxalq ictimaiyyətdən ciddi reaksiya yoxdur. 2024-cü il 13 iyunda BMT Təhlükəsizlik Şurası 2736 saylı qətnaməsi dərhal blokadanın qaldırılmasını tələb edirdi. Lakin bu sənəd kağız üzərində qalıb.

**Beynəlxalq ictimaiyyət susur...**




ABŞ 2025-ci il yanvarın 7-də üsyançı silahlı dəstələrin Darfurdakı fəaliyyətini rəsmi olaraq soyqırım kimi tanıyıb. Beynəlxalq Cinayət Məhkəməsinin prokuroru isə mütəmadi olaraq BMT Təhlükəsizlik Şurasına insanlığa qarşı cinayətlərin istintaqı barədə hesabat verir. Amma nə bu bəyanatlar, nə də "humanitar fəlakət" statusu Əl-Faşer sakinlərini xilas yoluna bir addım belə yaxınlaşdırmayıb.

Yeri gəlmişkən, noyabrın 1-də Sudanın ölkəmizdəki səfirliyində keçirilən tədbirdə bu ölkədəki vəziyyət, xüsusilə də Əl-Faşer şəhəri və Darfur bölgəsində baş vermiş faciə, eləcə də beynəlxalq ictimaiyyətin reaksiyası müzakirə olunub. Konfrans zamanı Sudanda törədilən terror və qətliamı əks etdirən videoçarx nümayiş etdirilib. Kadrlarda silahlı qruplar tərəfindən güllələnən qadınlar, öldürülən uşaqlar, ağaclardan asılmış insanlar, yandırılmış evlər və xəstəxanada qətlə yetirilmiş xəstələr görünür. Görüntülərdən aydın olur ki, qurbanların hamısı dinc əhalidir.

**Səfir: Əl-Faşerdə son bir neçə gündə 2000 insan qətlə yetirilib**

Sudanın fövqəladə və səlahiyyətli səfiri Ənəs Eltayeb Elqaylani Mustafa bildirib ki, bu cinayətlər və zorakılıq aktları minlərlə insanın evlərini tərk etməsinə, ölkə daxilində geniş miqyasda əhali yerdəyişməsinə səbəb olub: "Əl-Faşerdə son bir neçə gündə 2000 insan qətlə yetirilib, xəstəxanalarda müalicə alan şəxslər öldürülüb. Silahlılar qadağan edilmiş silahlardan, dronlardan istifadə edirlər. Onlar Çad, Liviya, Kolumbiya, Nigeriya və digər ölkələrdən olan muzdluları da öz sıralarına cəlb ediblər. Bu məsələ beynəlxalq təhlükəsizliyə də təhdid yaradır".

Diplomat vurğulayıb ki, Sudan hökuməti hadisələrin beynəlxalq səviyyədə araşdırılması, günahkarların məsuliyyətə cəlb olunması və humanitar yardımın təmin edilməsi üçün beynəlxalq ictimaiyyətə çağırış edib. Səfir əlavə edib ki, hökumət sülh və sabitliyin bərpası naminə bütün regional və beynəlxalq tərəfdaşlarla əməkdaşlığa hazırdır.

Qeyd olunub ki, bölgədə hərbi əməliyyatlar və zorakılıqlar nəticəsində minlərlə dinc sakin qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, on minlərlə insan məcburi şəkildə öz evlərini tərk edib: "Müdafiəsiz mülki şəxslərə qarşı etnik təmizləmə həyata keçirilir. Ancaq dünyanın digər böhranlarına münasibətdə beynəlxalq ictimaiyyətin Əl-Faşer soyqırımına münasibəti ləngiyir. Hazırda şəhərə humanitar yardımın çatdırılmasını təmin etmək üçün təcili tədbirlərə ehtiyac yaranıb. Sudanda yaşananlar müdafiəsiz, dinc insanlara qarşı törədilmiş ən dəhşətli soyqırım kimi tarixə həkk olunur. Bu hadisələr bölgəyə də təsir etməkdədir". Əl-Faşer və ətraf ərazilər bu gün etnik təmizləmə və soyqırımı səviyyəsinə çatan kütləvi cinayətlərin şahididir.

Səfirlik beynəlxalq ictimaiyyəti və BMT Təhlükəsizlik Şurasını bu hadisələrə sərt reaksiya verməyə, cinayətkarları məsuliyyətə cəlb etməyə və silahlı qruplaşmanın terror təşkilatı kimi tanınmasına çağırıb. Vurğulanıb ki, bəzi xarici və regional qüvvələrin üsyançılara silah və maliyyə dəstəyi verməsi Sudan kəşfiyyat orqanları tərəfindən sənədlərlə sübuta yetirilib. Sudan hökuməti sülh və sabitliyin bərpasına, humanitar yardımın çatdırılmasına və siyasi həll yollarının tapılmasına sadiqliyini bir daha təsdiqləyib.

***Nardar BAYRAMLI***

# “OPEC+” neft tədarükünü niyə artırır?

“OPEC+” razılaşmasının üzvü olan 8 ölkənin nazirləri dekabr ayında neft hasilatı kvotalarını gündə 137 min barel artırmaq qərarına gəliblər. Qərar 2026-cı ilin yanvar, fevral və mart aylarında istehsal artımını nəzərdə tutur. Yeni tədarük siyasətinə əsasən, alyanc üzvləri ötən ilin sonlarında könüllü olaraq azaltdıqları 1,65 milyon barel hasilatı yenidən bərpa etmək niyyətindədir. Belə ki, neft hasilatını azaldan Əlcəzair, Küveyt, İraq, BƏƏ, Səudiyyə Ərəbistanı, Qazaxıstan, Oman və Rusiyanın razılaşdırması sayəsində qəbul edilən gündəlik 1,65 milyon barel azalmanın məqsədi qiymət sabitliyini təmin etmək idi və 2026-cı ilə qədər nəzərdə tutulub. Alyans üzvlərinin yenidən əks-istiqamətdə, yəni tədarük sıxılmasına deyil, artırılmasına yönəlmiş qərarları ona dəlalət edir ki, hazırkı neft qiyməti onlar üçün qənaətbəxşdir. Yaxud, “OPEC+” qiymətlərin indiki zənbildə qalmasının tərəfdarıdır.

Təşkilatın iri neft təchizatçıları bu addımı mövsümi amillər nəzərə alınmaqla atdıqlarını bildirsələr də, əslində dünya bazarında baş verən son fraqmentasiyalar, geosiyasi mürəkkəbliklər, neft istehlakında dəyişmələr, ABŞ-ın sərt ticarət tətbiqləri və digər amillər neft kvotasında yeni artım qərarının qəbul edilməsində təsiredici rol oynayıb. Qlobal enerji analitiklərinin, habelə beynəlxalq iqtisadi institutların qənaətinə görə, 2025-ci ilin əvvəlindən formalaşan qlobal iqtisadi meyillər dünya üzrə xammal bazarlarına da təsirsiz qalmayıb, fevral ayından etibarən əmtəə qiymətlərində enmə tendensiyası müşahidə olunub. Bu situasiyaların növbəti ildə də davam edəcəyi istisna olunmur.

## 2026-cı ildə “qara qızıl”a tələb azalacaq

Dünya Bankının məlumatlarına əsasən, cari ildə xammal qiymətləri orta hesabla 10 faiz azalıb və bu neft tədarükçülərinin müxtəlif rüblərdə verdiyi qərarlarla müəyyən qədər səngiyib, ancaq enerji qiymətlərində artımların olacağı ehtimalı zəifdir. Proqnozlara görə, 2026-cı ildə bəzi enerji və metal məhsullarının istehsalının genişlənməsi, habelə müxtəlif təsərrüfatı məhsullarında təklif məhdudiyyətlərinin yumşaldılması fonunda azalmanın səngiyərək qlobal bazar dəyərinin 6 faizə enməsi fərz edilir. “OPEC+” ölkələrinin xam neft hasilatında artım qərarlarına baxmayaraq, qlobal neft tələbinin azalması gözləntiləri səbəbindən neft qiymətinin ilə bağlı azalma dinamikası proqnozlaşdırılır. Yəni bu o deməkdir ki, “OPEC” və “OPEC+” ölkələri dünya bazarında neft tədarükünün həcmini artırsa da, “qara qızıl”ın qiyməti 2025-ci ildəki dəhlizdən də aşağı enəcək.

Beləliklə, hasilatçı ölkələrin yeni qərarından sonra qlobal bazara çıxaracağı neftin gündəlik həcmi 38,185 milyon barel təşkil edəcək. Bu, qlobal neft bazarının təxminən 40-42 faizi deməkdir. Ümumilikdə, gündəlik qlobal neft tədarükünün (104 milyon barel) təxminən 42 faizi həmin 8 ölkəyə məxsusdur.

## Valyuta Fondu ümidverici proqnoz vermir

Qeyd edək ki, son aylarda qlobal bazarlarda xam neftə olan tələb azalmaqda davam edir. Buna müxtəlif ölkələrdə iqtisadi fəallığın azalması, o cümlədən ABŞ və Avropa İttifaqında sənaye və enerji sektorunda işgüzarlığın zəifləməsi, qlobal bazarın ən nəhəng istehlakçısı olan Çində gözləniləndən daha az xam neft tələbinin qeydə alınması, bərpa olunan enerjiyə keçidin sürətlənməsi və digər faktorlar təsir göstərməkdədir. Beynəlxalq Enerji Agentliyinin (IEA) gözləntilərinə görə, Avropa ölkələrində, o cümlədən əsas iqtisadi güc olan Almaniyada neft tələbi sutkada 100 min barelə yaxın azalıb, ABŞ-da istehsal fəaliyyəti cari ilin ötən aylarında ardıcıl olaraq aşağı düşüb. Bu tendensiyasnın 2024-cü ilin son rübündə və cari ilin ilk rübündə də davam edəcəyi gözlənilir. Beynəlxalq Valyuta Fondunun və qlobal enerji agentliklərinin proqnozlarına görə, dünya iqtisadiyyatında yavaşlama tələbin azalmasını təşviq edəcək. Bu isə orta qiymət əmsalının 60-62 dollar çərçivəsində qalmasına səbəb olacaq.

Bu meyilləri nəzərə alan “OPEC+” və OPEK üzvləri bazara daha çox neft göndərməyi məqsədəuyğun saymır. Əlavə neft tədarükü bazarda izafi enerji həcmləri yaratmaqla, indiki sabit qiymətlərin ritminin daha da poza bilər. Kartel ölkələrinin enerji analitikləri hesab edirlər ki, dünya iqtisadiyyatında cüzi artım faizinə və sənayenin artma tələbatına uyğun neft tədarükün cəlb edilməsi vacibdir. Bu baxımdan “OPEC+”in gündəlik hasilatı 137 min barel əlavə neft tədarükü qlobal bazarın cəmi 0,01 faizi olmaqla birjalara ciddi təsir göstərə bilməz. Yəni dünya neft bazarında qiymət zənbilini formalaşdırmır. Ona görə də, alynas ölkələrinin bu qərarını dünya neft bazarının əsas təchizatçıları olan “OPEC” ölkələri də anlayışla qarşılayıb.



Yeri gəlmişkən, “OPEC+”dən fərqli olaraq, “OPEC” dövlətləri bazara çoxlu neft çıxarmaq niyyətində deyil, onların qənaətinə görə, daha çox tədarük bazar

## “OPEC” optimal qiyməti 70 dollar hesab edir

çox ciddi şəkildə təsir edə bilər, əksinə, hasilatı azaltmaqla qlobal bazarı müəyyən qədər “sıxmaq” mümkündür ki, bu da qiymətlərin artmasına gətirib çıxarır. Ona görə də, kartel ölkələrinin qiymət dəhlizini sabit saxlamaq üçün əlavə hasilatalara gedəcəyi mümkün görünmür. Ümumilikdə, “OPEC” ölkələri qlobal bazar üçün optimal qiymətin indiki şəraitdə 70 dollar olmasını sərfli hesab edir. Kartel ölkələri hesab edir ki, dünya bazarında neftin qiyməti təbii olaraq deyil, süni yollarla da dəyişdirilir. Belə ki, ucuzlaşma hasilatın artırılması, nəqliyyat xərclərinin artması və s. amillərə bağlı deyil, bazara süni müdaxilələr olur ki, bu da təchizatçıların planlaşdırmasını pozur.

“OPEC+” və ya səkkizlik ölkələrinin növbəti görüşü cari il noyabrın 30-da keçiriləcək. Bazarda neftin qiymətlərindən asılı olaraq hasilatın artırılıb və ya azaldılmasına dair yeni qərarın veriləcəyi istisna edilmir.

**ELBRUS**

# Ağrı dağının təsvirindən imtina...

## Ermənistan Türkiyəyə qarşı ərazi iddialarından geri çəkilir?

**N.BAYRAMLI**

Ermənistanın qonşu ölkələrə qarşı ərazi iddiaları irəli sürməsi yeni məsələ deyil. Bu ölkə Azərbaycanla yanaşı, Gürcüstan və Türkiyəyə qarşı da ərazi iddiaları ilə çıxış edib. Lakin dövlətimizin öz ərazi bütövlüyünü bərpa etməsi və regionda yeni reallıqlar yaratması vəziyyəti dəyişməkdədir.

Artıq Ermənistanda anlamağa başlayıblar ki, qonşu ölkələrə qarşı ərazi iddiaları ilə çıxış etmək ilk növbədə özünün ziyanınadır. Azərbaycan ərazilərinin 30 illik işğalının nəticəsi rəsmi İrəvan üçün dərs olub. Bu işğal nəinki ermənilərə fayda vermədi, əksinə Azərbaycan öz torpaqlarını azad edərək İrəvanı kapitulyasiyaya məcbur etdi. İndi İrəvan Türkiyəyə qarşı olan iddialarından da geri çəkilməkdədir. Məlumdur ki, indiyədək İrəvan Türkiyəyə qarşı iddialarını bəzi dövlət rəmzlərində ifadə edir. Məsələn, Ermənistana giriş-çıxış üçün sərhəd möhüründə Ağrı dağının təsviri var idi. Bu dağ Türkiyə ərazisində yerləşsə də, ermənilər onu özününküləşdirib “Ararat” adlandırmağa çalışıblar. Artıq noyabrın 1-dən Ermənistana giriş-çıxış zamanı Ağrı dağı sərhəd möhüründə təsvir olunmur. Bu barədə qərar isə hökumət tərəfindən sentyabrın 11-də qəbul edilmişdi.

Möhürün yeni nümunəsi artıq Nazirlər Kabinetinin qərarı ilə təsbit edilib. Qaydalar 1 noyabr 2025-ci ildən qüvvəyə minib. Möhürdə dağın yerinə erməni və ingilis dillərində “Ermənistan” sözləri, keçid məntəqəsinin adı, sərhədin keçildiyi tarix və keçid məntəqəsinin növü (hava, dəmiryol və ya avtomobil) qeyd olunur. Ermənistan parlamentində hakim “Vətəndaş müqaviləsi” fraksiyasının katibi Artur Ovannisyan bildirib ki, ölkənin sərhəd möhürü dövlətin rəmzlərini əks etdirməli, emosional, sentimental simvolları ifadə etməməlidir. O, qeyd edib ki, Ermənistan təhlükəli mesajlar göndərməməlidir: “Biz istifadə etdiyimiz simvolizm, möhürlərdə yalnız dövlətçilik prinsipindən irəli gələrək Ermənistanla bağlı istənilən anlaşılmazlığın yaranmaması üçün hər şeyi edirik”. Deputat vurğulayıb ki, qonşularla münasibətlərində Almatı Bəyannaməsindən çıxış edirlər: “İstər möhür, istərsə də səsləndirdiyimiz bəyanatlar olsun, hər bir hərəkətimiz təhlükəli ismarış daşımamalıdır”.

Fraksiyanın katibi Ermənistan-Türkiyə münasibətlərində irəliləyişin olmaması barədə bəyanatlardan təəccübləndiyini də bildirərək deyib ki, Türkiyənin rəsmi nümayəndəsi Ermənistana səfər edib, müzakirələr kifayət qədər müsbət atmosferdə keçib. O, bunu deyərkən sentyabrın 12-də Türkiyə təmsilçisi Sərdar Kılıçın başçılıq etdiyi nümayəndə heyətinin Ermənistana səfərini nəzərdə tutub. Hansı ki, Sərdar Kılıçın başçılıq etdiyi nümayəndə heyəti “Marqara” nəzarət-buraxılış məntəqəsindən bu ölkəyə daxil olmuşdu. Əslində, Sərdar Kılıçın səfərindən öncə möhürdən Ağrı dağının təsvirinin yığışdırılması qərarı rəsmi İrəvanın Ankaraya müsbət mesajı kimi dəyərləndirilir.




Baş nazir Nikol Paşinyan da hələ bir neçə il əvvəl bildirmişdi ki, Ağrıdağın Ararat adlandırılması və onun Ermənistanda simvollaşdırılması Türkiyəyə qarşı ərazi iddiasıdır: “Ağrı dağı Türkiyənin beynəlxalq səviyyədə tanınmış ərazisindədir”. Erməni tərəfinin bu addımı Azərbaycanla Türkiyəyə sülh və əməkdaşlıq mesajı görüntüsü yaradır. Pasport möhürlərindən Ağrı dağının təsvirinin yığışdırılması Ermənistanın Türkiyəyə ərazi iddiasından imtina yolunda vacib addım kimi dəyərləndirilə bilər. Çünki ideoloqları və havadarları yüz ildən artıqdır erməni cəmiyyətinə bu kimi iddialı xülyaları təbliğ ediblər. Lakin iki ölkə arasında münasibətlərin normallaşması üçün əsas şərtlərdən biri Ermənistanın Türkiyəyə ərazi iddiasından əl çəkməsi, biri də uydurma “erməni soyqırımı”ndan imtinadır.

Beləliklə, erməni tərəfi anlayır ki, ölkəni inkişaf etdirməyin yeganə yolu Azərbaycan və Türkiyə ilə əməkdaşlıq etməkdən keçir. Sülh şəraitində bu əməkdaşlıq olmazsa, Ermənistan dalan dövləti olaraq qalacaq. Ona görə də, Ermənistanın indiki hakimiyyəti reallıqları anlayaraq destruktiv mövqedən uzaqlaşmağa çalışır. Bütün hallarda isə rəsmi İrəvan sülh və əməkdaşlığa maraqlı olmasını praktiki addımlarla təsdiqləməlidir.

# Budapeşt görüşü baş tutmadı: səbəblər və faktlar

## Bir telefon zəngi ilə dəyişən danışıqlar prosesi...

Ukrayna müharibəsinin aradan qaldırılması istiqamətində mühüm addımlardan sayılacaq Budapeşt görüşü baş tutmadı - Vladimir Putin və Donald Tramp arasında Macarıstanda keçirilməsi planlaşdırılan sammit qeyri-müəyyən müddətə təxirə salındı. “The Financial Times” qəzetinin məlumatına görə, bu qərara Rusiyanın Ukrayna böhranı ilə bağlı prinsipial mövqeyi səbəb olub. Məqalədə qeyd olunur ki, “ABŞ Rusiyanın Ukraynadakı münaqişənin həllinə prinsipial yanaşmasına görə Budapeştdə planlaşdırılan görüşü təxirə salmaq qərarına gəlib. Bu qərar iki ölkənin yüksək vəzifəli diplomatları - xarici işlər naziri Sergey Lavrov və dövlət katibi Marko Rubio arasında gərgin telefon danışığından sonra verilib”.

## Rusiyanın tələbləri dəyişmir...

Xarici KİV-lərin məlumatına görə, Rusiya Xarici İşlər Nazirliyi Amerika tərəfinə Ukraynadakı münaqişənin əsas səbəblərinin aradan qaldırılmasının vacibliyini vurğulayan bir memorandum göndərib. Xatırladaq ki, hələ 21 oktyabrda “Reuters” agentliyi ABŞ hökumət rəsmilərinə istinadən bildirmişdi ki, Rusiya ABŞ-a Ukraynada sülhə nail olmaq üçün dəyişməz şərtləri özündə əks etdirən qeyri-rəsmi diplomatik memorandum (kağız olmayan sənəd) təqdim edib. Agentliyin mənbəsinin verdiyi məlumata görə, sənəddə Rusiya tərəfi tələblərini təkrarlayıb - Donbasın bütün ərazisi üzərində Rusiyanın nəzarətinin formalaşdırılması, Ukraynanın NATO-ya planlaşdırılmamış qoşulmasının qarşısının alınmasına zəmanətin verilməsi və Ukrayna Silahlı Qüvvələrinin sayının azaldılması kimi prinsiplər bu sənəddə öz əksini tapıb.

Nəşrin xəbərinə görə, Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov isə iki ölkə arasında qapalı diplomatik notaların mübadiləsini təsdiqləməyib.

## Kreml ehtiyac görmür...

Kremlin yayılan xəbərlərə münasibətinə aydınlıq gətirilib. Belə ki, Moskvanın Putin-Tramp görüşünə ehtiyac görmədiyi bəyan edilib. Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, Putin və Tramp arasında görüşü tez bir zamanda hazırlamaq mümkündür, lakin Ukraynadakı münaqişənin həllinin detalları üzərində işləməkdən fərqli olaraq buna ehtiyac yoxdur.

Bəlli olduğu kimi, otktyabrın 16-da telefon danışığı zamanı Putin və Tramp Budapeştdə sammit keçirmək barədə razılığa gəlmsişdilər - lakin bir həftə sonra Amerika prezidenti görüşün ləğv olunduğunu elan etdi. “Getməli olduğumuz yerə çata bilməyəcəyimizi hiss etdim. Buna görə də onu ləğv etdim. Amma biz bunu gələcəkdə edəcəyik”, - deyə o bildirib. Putin isə görüşün ləğv edilmək əvəzinə təxirə salındığını bildirmişdi.



## “Tomahavk” raketləri verilməyəcək...

Xarici mətbuat müxtəlif mənbələrə istnadən bildirir ki, Tramp Rusiya tərəfinin mövqeyindən narahat deyil, əksinə Putinlə birbaşa görüşmək istəyini qoruyub saxlayıb. Onun Ukraynaya müharibəni daha da qızışdıracaq silahların verilməsinə “yox” deməsi də bununla əlaqələndirilir. Belə ki, Donald Tramp Ukraynaya “Tomahavk” raketləri vermək planlarının olmadığını bildirib. “Air Force One” təyyarəsində müxbirlərlə söhbət zamanı Tramp hazırda Kiyevə uzaqmənzilli raketlər verməyi düşünmədiyini vurğulayıb. Lakin o, gələcəkdə mövqeyini yenidən nəzərdən keçirmə ehtimalını da istisna etməyib. Qeyd edək ki, CNN əvvəllər Pentaqonun Ukraynaya “Tomahavk” raketlərinin verilməsinə etiraz etmədiyini və bunun Amerika ehtiyatlarına təsir etməyəcəyinə inandığını bildirmişdi. Lakin son qərar Trampın ixtiyarında idi. Ukraynadakı münaqişənin sona çatma perspektivləri ilə bağlı suala cavab olaraq Tramp qeyd edib: “Bəzən onların döyüşməsinə icazə vermək lazımdır. Bu, Putin üçün çətin bir müharibədir. O, çoxlu əsgər itirib. Bəlkə də bir milyon. Bu, Ukrayna üçün çətindir. Bu, hər kəs üçün çətindir.”

## Rusiya nə istəyir, Ukrayna nə edir?

Siyasi ekspertlər münaqişənin hazırki dövrünü və baş verən siyasi gedişləri belə xarakteriz edir:

- Rusiyanın Donald Trampın təcili atəşkəs çağırışını ləngitməsinə səbəb Putinin Ukraynada qələbəsinə inamının hələ də ölməməsindən irəli gəlir;

- Həm Rusiya, həm də Ukrayna daha çox biri-birinin resusrlarını “tükəndirmək” uğrunda döyüşür;

- Bu baxımdan, müharibənin hələ davam etməsi ehtimalı mövcuddur.

Verilən rəylərdə maraqlı bir detal da diqqət çəkir - heç bir tərəf cəbhə xəttində yaxın zamanda əhəmiyyətli bir irəliləyiş əldə edə bilməyib. Bu faktın özü sülhün labüdlüyünü göstərən amil kimi çıxış edir. Qərb siyasətçiləri bildirirlər ki, Kiyev qarşıdakı dövrdə Rusiyanın müharibə maşınının “can damarı” sayılan neft emalı zavodlarına qarşı uzaqmənzilli zərbələrə güvənir. Rusiyanın isə həm taktikası , həm strategiyası, həm də hədəfləri dəyişməyib: ölkənin böyük bir hissəsini işğal etmək və Kiyevdə özünəyaxın siyasi sistem qurmaq. Siyasi texnoloqlar bildirirlər ki, sanksiyalara və müharibə xərclərinə baxmayaraq Rusiya iqtisadiyyatının dözməsi müvəqqətidir. Neftlə bağlı sanksiyaların miqyası böyüdükdən sonra, Kreml vergilər və ya məqsədyönlü xərc kəsintiləri kimi ənənəvi vasitələrlə büdcə boşluqlarını doldura bilməyəcək.

**P.İSMAYILOV**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayım" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0125314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN






# Gənc sahibkarlar üçün...

## Bakıda mühüm forum keçirildi

Bu günlərdə Bakıda "Gənc MÜSİAD"ın təşkilatçılığı ilə Avrasiya Gənc İş Adamları Forumu (EYBF2025) keçirilib. Forum Türkiyənin Prezident Administrasiyasına bağlı İnvestisiya və Maliyyə Ofisinin, Türkiyə Cümhuriyyəti Gənclik və İdman Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Azərbaycan Sahibkarlar Konfederasiyasının dəstəyi ilə baş tutub. Forumun açılış mərasimində çıxış edən gənclər və idman naziri Fərid Qayıbov bildirib ki, Azərbaycanda innovasiya və sahibkarlığın inkişafı ilə bağlı müxtəlif forumlar keçirilir: "KOBİA tərəfindən bu günə qədər gənclər üçün 4 forum keçirilib. Azərbaycanda müxtəlif beynəlxalq forumlar təşkil olunur. Bu cür forumlar gənc sahibkarların dünyaya tanıdılmasında mühüm rol oynayır".

### 50-yə yaxın ölkə gənclərinin iştirakı ilə...

Türkiyənin gənclər və idman nazirinin müavini Enes Eminoğlu çıxışında təmsil etdiyi ölkədə 600-ə yaxın gənclik mərkəzinin fəaliyyət göstərdiyini qeyd edib: "Türkiyənin 90 minə yaxın gənc əhalisi var. Bu forumda 50-yə yaxın ölkədən gənclər iştirak edirlər. Forumun Bakıda keçirilməsi çox əhəmiyyətlidir. Gənclərin innovativ fəaliyyətlərini yaxından izləyirik".

Nazir müavini xatırladıb ki, Azərbaycan ilə Türkiyə son 10 il ərzində bir çox platformada mühüm əməkdaşlıq edir: "İki qardaş ölkə arasındakı münasibətlər son illərdə ən yüksək zirvəyə yüksəlib. Azərbaycanın Türkiyə ilə yaxın dostluq münasibətləri, hər iki ölkənin dövlət başçılarının ortaya qoyduğu iradə fəaliyyətimizi daha da dərinləşdirir".

### Azərbaycan gənclərin təşəbbüskarlığına inanır

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov qeyd edib ki, Azərbaycan bu gün gənclərin təşəbbüskarlığına inanır və buna dəstək verir: "KOBİA gənc sahibkarlara bir sıra sahələrdə çalışır və onlara dəstək göstərir. Gənclərin dəyişiklik yaratmaq potensialına inanırıq. Çünki hər bir təşəbbüs ölkəmizin sabahına qoyulan bir investisiyadır. Gənclər ideyalarına inanırsa, artıq qalib hesab olunurlar. Bu forumun ən başlıca məqsədi əlaqələr qurmaq deyil, bir ruh, gələcəyə doğru istiqamət yaratmaqdır. Bu dürüstlük əməksevərlik və halal qazanc ruhudur. İstiqamət isə Avrasiyada dayanıqlı, ədalətli və yaradıcı sahibkarlığın inkişaf yoludur".

### Türk dünyasının və Avrasiyanın gələcəyi əmin əllərdədir

"MÜSİAD Azərbaycan" İctimai Birliyinin sədri Rəşad Cabirli bu forumun gənc ideyaların zirvəsi olduğunu deyib. O qeyd edib ki, Türk dünyasının və Avrasiyanın gələcəyi əmin əllərdədir: "Dünya dəyişsə də, sahibkarlığın mahiyyəti eyni qalır. Gənc odur ki, yenilik gətirir, dəyər yaradır. Azərbaycan və Türkiyə bu coğrafiyanın iki qardaş dayağıdır. Bu gün hər bir sahibkar iş adamı deyil, dəyər adamıdır. Birlikdə fikirdən dəyərə, dəyərdən gələcəyə doğru addımlamalıyıq".

"Gənc MÜSİAD"ın sədri Mağsun Usta isə çıxışında Avrasiya Gənc İş Adamları Forumunun gənc investorlar, sahibkarlar və iş dünyası üçün mühüm platforma olduğunu vurğulayıb: "Bu gün burada toplaşmağımız sadəcə bir forum açılışı deyil, Avrasiya Gənclərinin ortaq baxışını yenidən müəyyənləşdirmək niyyətidir. Dünyanın iqtisadi taraz-

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti üzrə hazırlanmışdır**

### İnvestorlar, sahibkarlar və iş dünyası üçün mühüm platforma

lığı yenidən formalaşdıqca, biz bu bölgənin gəncləri olaraq, artıq sadəcə tamaşaçı deyil, yeni dövrün qurucuları olmaq istəyirik. Qlobal iqtisadiyyat artıq mərkəzləşməyib. Kapital, istehsal, innovasiya və ticarət axınları Şərqə, Cənub-Şərqə və bütün Avrasiyaya yönəlib. Bu gün Avrasiya xəritələrdə yalnız birləşdirici xətt deyil, dünyanın yeni istehsal və dəyər kəməridir. Avrasiya bölgəsi təbii sərvətləri ilə yanaşı, insan resursları, xüsusən də gənc sahibkarları ilə yüksəlişdədir: "Bu forum onların potensialının əsl göstəricisidir. Burada irəli sürülən hər bir fikir, əməkdaşlıq hər bir bölgənin gələcəyində öz izini qoyacaq. Bu gün sərmayə, sadəcə pul deyil, həm də bilik, texnologiya, çeviklik və etibardır. Bir ölkənin və ya sahibkarın gücü artıq onların sahib olduğu aktivlərdə deyil, yarada biləcəkləri tərəfdaşlıqlardadır. Müxtəlif mədəniyyətlərin və fərqli istehsal üsullarının kəsişdiyi bir məkan olaraq əməkdaşlıq artıq seçim deyil, zərurətdir".

Onun sözlərinə görə, sahibkarlıq bir peşə, sivilizasiya formasıdır: "İstehsal etmək, paylaşmaq və çatdırmaq mədəniyyətimizin təkcə iqtisadi deyil, həm də mənəvi təzahürləridir. Bizi həqiqətən birləşdirən coğrafiya deyil, ortaq bir inam və gələcək hissidir. Bu hiss ticarətlə yanaşı, həm də sülhün, həmrəyliyin və qarşılıqlı etimadın təcəssümüdür".

*Yeganə*

# İnkişaf, yoxsa təhlükə?

## Alimlər süni intellekti gələcək üçün təhdid hesab edir

Hazırda həyatımızı texnologiyalarsız təsəvvür etmək qeyri-mümkündür. Eyni zamanda, informasiya cəmiyyətinin inkişafını da yeni texnologiyalar olmadan təsəvvür edə bilmərik. Burada xüsusilə, süni intellekt sistemlərini qeyd etmək yerinə düşərdi. Sürətlə inkişaf edən süni intellekt texnologiyaları həyatımızda mühüm yer tutsa da, onların inkişafı alimləri ciddi narahat edir. Beynəlxalq alimlər qrupunun qənaətincə, süni zəkanın inkişafı pik nöqtəyə çatdığı halda insan həqiqətən də onu idarə edə bilməyəcək. Təsəvvür edək ki, zəkası insan beynini geridə qoyan süni intellekt sistemi yaradılsa, o, insanın köməyi olmadan fərdi şəkildə özünü inkişaf etdirəcək. Bu halda süni zəka mövcud olan bütün proqramları dəyişdirə və şəbəkəyə qoşulmuş sistemləri ələ keçirə biləcək. Alimlər də məhz bundan narahatdırlar.

### Süni intellektlə bağlı yeni araşdırma

Alimlərin gəldiyi başqa bir qənaətə görə, süni intellekt və neyrotexnologiyaların sürətli inkişafı şüurun necə yarandığını anlamağın zəruriliyini hər zamankından daha aktual edib. Tədqiqat "Frontiers in Science" jurnalında dərc olunub.

Şüur orqanizmin özünü və ətraf aləmi dərk etdiyi haldır. Onilliklərdir aparılan araşdırmalara baxmayaraq, elm hələ də subyektiv təcrübənin bioloji proseslərdən necə yarandığını izah edə bilmir.

Alimlər müxtəlif nəzəriyyələri nəzərdən keçirirlər: məsələn, "qlobal işçi məkanı nəzəriyyəsi" beynin müxtəlif sahələrindən gələn məlumatların birləşməsi nəticəsində şüurun yarandığını fərz edir. "İnteqrasiya olunmuş informasiya nəzəriyyəsinə" görə isə sistemin hissələri sıx əlaqəli və qarşılıqlı təsirli olduqda həmin sistem şüurlu hala gəlir.

Yeni tədqiqatda alimlər şüur elminin mövcud vəziyyətini və insanlığın yalnız şüuru anlamaqla kifayətlənməyib, onu yaratmağı da bacardığı təqdirdə - məsələn, süni intellektdə və ya laboratoriyada yetişdirilmiş beyin orqanoidlərində ortaya çıxacaq mümkün nəticələri təhlil ediblər.

Müəlliflərin fikrincə, insan, heyvan, embrion, orqanoid və ya süni intellekt kimi sistemlərin şüur əlamətlərinə malik olub-olmadığını müəyyən etmək üçün etibarlı şüurluluq testlərinə ehtiyac var. Bu, beyin zədələri və ya demensiyası olan xəstələrdə şüurluluğun diaqnostikasına, həmçinin onun döl və ya heyvanlarda hansı mərhələdə yarandığını anlamağa kömək edəcək.

Lakin belə kəşflər həm də dərin etik və hüquqi nəticələrə səbəb olacaq: əgər hər hansı sistem şüurlu sayılarsa, cəmiyyət onunla necə davranmalı olduğu sualına cavab verməli olacaq.

"Şüurun öyrənilməsində irəliləyiş bizim özümüz, süni intellekt və insanın təbiətdəki yeri barədə təsəvvürümüzü dəyişəcək", - deyə Sasseks Universitetindən professor Anil Set qeyd edib.

Müəlliflər xəbərdarlıq edirlər ki, süni intellekt və beyin interfeysləri ilə bağlı texnologiyalar şüurla bağlı elmdən daha sürətli inkişaf edir və bu, ciddi etik nəticələrə gətirib çıxara bilər.



### Təhlükəsizlik və məxfilik...

Mövzunu "Yeni Azərbaycan"a dəyərləndirən İT üzrə mütəxəssis Fərid Pərdəşünas bildirib ki, süni intellektin istifadəsi ilə bağlı əsas problemlərdən biri informasiya təhlükəsizliyi və məxfilik məsələləridir: "Süni intellekt sistemləri şəxsi və həssas məlumatları toplaya bilər. Məsələn, müştəri məlumatları, şəxsiyyət vəsiqəsi detalları və digər fərdi informasiyalar bu sistemlər vasitəsilə toplanır. Belə məlumatların sızması isə şəxsi həyata ciddi risklər yarada bilər. Şəxsi şəkillərin manipulyasiya olunaraq istifadə edilməsi, şəxsiyyət oğurluğu kimi hallar artıq real təhlükəyə çevrilib".

### Hüquqi və tibbi məsləhətlərə qadağa

"OpenAI" şirkəti "ChatGPT" süni intellekt sisteminə hüquqi və tibbi məsləhətlər verməyi rəsmi şəkildə qadağan edib. Bildirilib ki, platformadan qaydalara uyğun istifadə edilmədiyi təqdirdə istifadəçilərin sistemlərə girişi məhdudlaşacaq və ya digər sanksiyalara üzləşəcəklər. Bu məhdudiyyət təhsil və kredit kimi sahələrə də şamil olunacaq.

### Bəzi iş yerləri üçün risk...

Mütəxəssis qeyd edib ki, bəzi peşələr üçün süni intellektin yayılması iş yerlərinin itirilməsi riskini artırır: "Xüsusilə standart işlərdə süni intellektin tətbiqi həmin sahələrdə çalışan insanlar üçün risk yaradır. Texnologiyanın sürətli inkişafı bu tip sahələrdə insan əməyinə olan tələbatı azalda bilər".

Süni intellektin yaratdığı digər bir təhlükəyə də toxunan mütəxəssis bildirib ki, saxta xəbərlər və manipulyasiya olunmuş görüntülər də ciddi problemə çevrilib: "Artıq bəzi hallarda istifadəçilər qarşılaşdıqları videonun və ya səs yazısının real insan tərəfindən hazırlanıb-hazırlanmadığını ayırd edə bilmirlər. Bu, cəmiyyətin informasiya təhlükəsizliyini zəiflədə bilər".

### Heç vaxt müəllimləri əvəz edə bilməyəcək

Ekspertin sözlərinə görə, süni intellektin müəllimi tam əvəz etməsi mümkün deyil. Çünki tədris prosesi təkcə bilik ötürməkdən ibarət deyil, o, həm də insani münasibət, emosional əlaqə və dəyərlərin formalaşdırılması prosesidir: "Süni intellekt isə nə qədər inkişaf etmiş olsa da, empatiya, anlayış və duyğu paylaşımı kimi insana xas keyfiyyətlərə malik deyil. O, verilən məlumatları emal edə bilər, amma şagirdin duyğularına və motivasiyasına insan kimi təsir göstərə bilməz. Texnologiya öyrətmə prosesini asanlaşdıra bilər, amma insan edən ünsiyyət, emosional bağlılıq və mənəvi dəyərlərin ötürülməsi yalnız müəllim vasitəsilə mümkündür. Ona görə də, gələcəyin təhsil modeli süni intellekt və müəllimin birgə fəaliyyətinə əsaslanmalı, amma müəllimin yerini tam olaraq texnologiyaya buraxmamalıdır".

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, süni intellekt həm üstünlüklərə, həm də mənfi cəhətlərə malikdir. Bu texnologiya bir tərəfdən müəyyən sahələrdə problemlərin həllinə kömək edərək insanların həyatını asanlaşdıra bilər. Digər tərəfdən, iş yerlərinin itirilməsi, təhlükəsizlik problemləri və etik narahatlıqlar süni intellektin geniş yayılması ilə bağlı əsas risklərdəndir. Ümumiyyətlə, bu texnologiyanın insanlıq üçün böyük bir nailiyyət, yoxsa gələcəyə təhdid olub-olmadığı, onun necə istifadə edilməsi və idarə olunmasından asılıdır.

*Yeganə BAYRAMOVA*

# "Azercell" ilə "Mələk İnvestorlar Məktəbi" startap və investorları bir araya gətirir

Azərbaycanın startap ekosistemində mələk investorluğun inkişafına ciddi töhfə verən "Mələk İnvestorlar Məktəbi" bu il "Azercell"in dəstəyi ilə daha geniş və interaktiv proqramla keçiriləcək. Təlim 4-6 noyabr 2025-ci il tarixlərində Bakıda baş tutacaq.

Proqram çərçivəsində ABŞ-dan dəvət olunmuş beynəlxalq ekspertlər və yerli mütəxəssislər iştirakçılara praktik biliklərini paylaşacaq, startap portfellərinin formalaşdırılması, düzgün seçimlər və uğurlu investisiya strategiyaları barədə dəyərli tövsiyələr verəcəklər. Sessiyalar ingilis dilində keçiriləcək.

2024-cü ildə layihə artıq 200-dən çox potensial investora təlim keçmiş, onların "SABAH Angels" klubuna üzvlüyünü təmin etmiş və startaplara yüz minlərlə dollar investisiya yönləndirmişdi. Bu il proqram daha böyük və interaktiv şəkildə təşkil olunacaq.

Təlimi tamamlayan və sonrakı altı ay ərzində startaplara investisiya edən iştirakçılar arasında püşkatma keçiriləcək. Beş qalib 2026-cı ildə Silikon vadisinə bütün xərcləri təşkilatçılar tərəfindən qarşılanmaqla səfər imkanı qazanacaq.

Layihə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi və "SABAH Angels" klubunun dəstəyi ilə həyata keçirilir.

Ətraflı məlumat üçün: www.angelinvestor.az


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4941
Sifariş: 2259
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova